**Khalilov N.Sh.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.81-103**
**UDC 347.1**

# Codification of civil legislation in Azerbaijan: history, current state and development prospects

**Abstract:** The Civil Code is the second most important legal act in the country after the Constitution, and the first in terms of volume. Due to its important role in the lives of citizens, sometimes the Civil Code is even informally referred to as the "Economic Constitution". At the same time, the Civil Code is the main document setting the rules for a market economy. This article is devoted to the processes of codification of the civil law in Azerbaijan over the past 100 years. During the twentieth century, Azerbaijan through the codification of civil law has adopted three Civil Codes, far more than many other countries. At the same time, this article describes the drafting of civil legislation from scratch on the transition from a planned economy to a market economy after gaining independence in the 1990s. At the end of the article, the existing problems of the civil legislation of the Republic of Azerbaijan are discussed and a number of suggestions are put forward for their solution.

**Keywords:** Civil law; private law; codification; normative legal act; Civil Code; Pandect system; legal reforms.

## References

1. *Azerbaijan SSR-in Mulki Mecellesi (1923-cu il), Azerbaijan SSR-in Mulki Mecellesi (1964-cu il)* [Civil Code of Azerbaijan SSR (1923), Civil Code of Azerbaijan SSR (1964)]: Butun elave ve deishiklikler de daxil olmaqla mecellelerin berpa edilmish tam metnleri/tertibchi B.C. Kerimli.[compiled by B.C. Kerimli] Baku: Huquq Yayin Evi Publ., 2013.

2. Akberov R.F., Salimov S.M. *Azerbaijanin dovlet ve huquq tarixi* [History and State Law of Azerbaijan]. Baku: Qanun Publ.,, 2003, 532 p.

3. Hasanov A. Sh. *İsh ve xidmet muqavileleri: Mulki Mecellenin kommentariyasi*: 2-ci neshr [Contracts for work and provision of services. Commentary of the Civil Code: 2nd edition]. Baku: Adventa MMC Publ., 2013, 415 p.

4. *Normativ huquqi aktlar haqqinda Azerbaijan Respublikasinin Konstitusiya Qanunu 21.12.2010* [Constitutional Law of Azerbaijan Republic On normative legal acts of 21.12.2010]. Available at: http://www.e-qanun.az/framework/21300 (accessed 11.02.2021)

5. Salimov S. *Azerbaijan SSR mulki qanunverichiliyi tarixinden* [From History of civil legislation of Azerbaijan SSR]. Baku: Azerneshr Publ., 1969.

6. Bogustov A.A. *Problemy vzaimodeystviya model'nogo i natsional'nogo grazhdanskogo zakonodatel'stva stran SNG* [Problems of interaction of the model and national legislation of CIS countries]. Rossiyskaya yustitsiya. 2012. No. 3, pp. 21-24.

♦ **Khalilov Natig Shahin oglu –** PhD in Law, Chief Adviser of the Office of the Trade Representative at the Embassy of the Republic of Azerbaijan in the People's Republic of China (Azerbaijan) (the People's Republic of China, Sun Yat-sen University). E-mail: nkhalilov@hotmail.com

7. Goybarg A.G. *Lenin i sovetskoe pravo* [Lenin and soviet law]. Sovetskoe pravo, 1924. No. 2.

8. Ioffe O.S. *Izbrannye trudy po grazhdanskomu pravu: Iz istorii tsivilisticheskoy mysli. Grazhdanskoe pravootnoshenie. Kritika teorii "khozyastvennogo prava"* [Selected Works on Civil Law: From the History of Civilistic Thought. Civil legal relationship. Criticism of the theory of "economic law".] Moscow, Statut Publ., 2000, 777 p.

9. Lenin V.I. *O zadachakh Narkomyusta v usloviyakh novoyi ekonomicheskoyi politiki. Pis'mo D.I. Kurskomu* [On the tasks of the People's Commissariat of Justice in the context of the new economic policy: Letter to D.I. Kurskiyi]. Complete set of works. Moscow, 1964.

10. Makovskiyi A.L. *O kodifikatsii grazhdanskogo prava (1922-2006)* [On codification of the civil law (1922-2006)]. Moscow, Statut Publ., 2010, 736 p.

11. Pavlova N.N. *Sravnitel'nyi analiz istochnikov grazhdanskogo zakonodatel'stva stran byvshego SSSR* [Comparative analysis of the sources of civil legislation of the former USSR countries]. Vestnik Permskogo universiteta. Vypusk 3 (17), 2012, pp. 159-166.

12. Salimov S.M. *Sozdanie grazhdanskogo zakonodatel'stva Azerbaijanskoyi SSR (1920-1923 g.)* [Creation of civil legislation of Azerbaijan SSR (1920-1923)] Baku, 1970.

13. Khalafov M.S. *Istoria gosudarstva i prava Azerbaijanskoyi SSR: 1920-1934 g. [History of State and Law of Azerbaijan SSR: 1920-1934]*. Baku, Academy of Sciences of Azerbaijan SSR Publ., 1964.

14. Khalafov M.S. *Grazhdanskoe pravo Azerbaijanskoyi SSR v period stroitel'stva sotsializma 1920-1935 g*. dis. dokt. yurid. nauk. [Civil law of the Azerbaijan SSR during the construction of socialism, 1920-1935]. Diss. of Doctor of Law. Baku, 1973.

15. Olimpiad S. Ioffe. Development of Civil Law Thinking in the USSR. Milano: Dott. A. Giuffre Editore, 1989.

16. Rémy Cabrillac. Les codifications (Droit éthique société) (French Edition) (French) Paperback – November 19, 2002. 320 p.

17. Rolf Knieper, Mark Boguslavski. Concept for Legal Counseling in Transformation States. Seidman/Wälde, Seidman 1999.

18. Rolf Knieper. Rechtsreformen entlang der Seidenstraße: Aufsätze und Vorträge während der beobachtenden Teilnahme an einem gewaltigen Transformationsprozess. Berliner Wissenschafts-Verlag, 1 Jan 2006.

19. Vladimir Gsovski. Soviet civil law: Private rights and their background under the Soviet regime. University of Michigan Law School, Ann Arbor 1949.

20. Yevgeny Sukhanov. The Concept of Ownership in Current Russian Law, Law Review. University of Tartu, Estonia, No. VI, 2001, pp. 102-107.

Xəlilov N.Ş.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.81-103
UOT 347.1

# Azərbaycanda mülki qanunvericiliyin məcəlləşdirilməsi: tarix, mövcud vəziyyət və inkişaf perspektivləri

**Xülasə:** Mülki Məcəllə önəminə görə ölkənin Konstitusiyasından sonra ikinci, həcminə görə isə birinci hüquqi aktı hesab olunur. Vətəndaşların həyatında oynadığı vacib rola görə Mülki Məcəllə hətta bəzən qeyri-rəsmi olaraq "İqtisadi Konstitusiya" adlandırılır. Eyni zamanda, Mülki Məcəllə bazar iqtisadiyyatı üçün qaydaları müəyyən edən əsas sənəddir. Məqalədə son 100 il ərzində Azərbaycanda mülki hüquq sahəsində həyata keçirilmiş məcəlləşdirmə prosesləri təsvir edilir. XX əsr ərzində Azərbaycanda bir çox digər ölkələrlə müqayisədə kifayət qədər çox, daha dəqiq desək, tam 3 dəfə mülki hüququn məcəlləşdirilməsi vasitəsi ilə Mülki Məcəllənin qəbul olunması baş tutub. Bununla yanaşı, məqalədə ötən əsrin 90-cı illərində müstəqillik əldə edildikdən sonra planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidlə bağlı mülki qanunvericiliyin sıfırdan tərtib olunması haqqında bəhs olunur. Məqalənin sonunda Azərbaycan Respublikasının mülki qanunvericiliyinin mövcud problemləri haqqında danışılır və onların həlli ilə bağlı bəzi təkliflər irəli sürülür.

**Açar sözlər:** mülki hüquq; xüsusi hüquq; məcəlləşdirmə; normativ hüquqi akt; Mülki Məcəllə; Pandekt sistemi; hüquqi islahatlar.

## Giriş

Məcəlləəşdirmə - normativ hüquqi aktların forma və məzmun baxımından yenidən işlənməsi yolu ilə vahid normativ hüquqi aktlarda birləşdirilməsidir [4]. Qanunvericiliyin məcəlləşdirilməsi müəyyən bir münasibətlər sahəsindəki mövcud normativ hüquqi aktların tənqidi şəkildə yenidən nəzərdən keçirilməsini, qanunvericiliyin keyfiyyətcə daha yuxarı səviyyəyə qaldırılmasınıvə onun kompaktlığının təmin edilməsini nəzərdə tutur. Məcəlləşdirmə normativ hüquqi aktlar arasındakı ziddiyyətləri, uyğunsuzluqları, habelə illər ərzində özünü doğrultmayan normaları, təkrarlamaları, köhnəlmiş müddəaları və boşluqları aradan qaldırmaq məqsədi daşıyır.Məcəlləşdirmə prosesində tərtibçilər özünü təsdiqləmiş mövcud normaları birləşdirməyə, sistemləşdirməyə, eyni zamanda, onların məzmununu və ardıcıllığını yenidən işləməyə, habelə müvafiq münasibətlər sahəsinin hüquqi cəhətdən tənzimlənməsinin maksimum tamlığını təmin etməyə çalışır.Məcəlləşdirmə mövcud qanunvericiliyin ümumiləşdirilməsi olmaqla yanaşı, sosial praktikanın təcili ehtiyaclarını əks etdirən yeni normaların yaradılmasını da nəzərdə tutur.

Məcəlləşdirmənin nəticəsi hüquq sahəsində əvvəllər mövcud olan normativ hüquqi aktları əvəz edən, sabit məzmunu olan yeni birləşdirilmiş qanunvericilik aktıdır (məcəllə, əsasnamə, nizamnamə və s.). Məcəlləşdirmənin ən önəmli xüsusiyyəti kimi qanunvericiliyin asanlaşdırılması

♦ **Xəlilov Natiq Şahin oğlu -** hüquq elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyində ticarət nümayəndəsinin Aparatının baş məsləhətçisi (Azərbaycan) (Çin Xalq Respublikası, Sun Yat-Sen Universiteti). E-mail: nkhalilov@hotmail.com

və yenilənməsi, onun qanunvericilik fəaliyyətinin ən mükəmməl və yüksək forması kimi qəbul etməyə imkan verir.

Mülki Məcəllə önəminə görə ölkənin Konstitusiyadan sonra ikinci, həcminə görə isə birinci hüquqi aktı hesab olunur. Vətəndaşların həyatında oynadığı vacib rola görə Mülki Məcəllə qeyri-rəsmi olaraq "İqtisadi Konstitusiya" adlandırılır. 21 dekabr 2010-cu ildə qəbul edilən "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu Mülki Məcəlləyə digər qanun və məcəllələrə nisbətən daha yüksək status verir, belə ki, qanunun 2.5-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülki hüquq normalarını əks etdirən digər məcəllə və qanunlarla ziddiyyət təşkil etdikdə Azərbaycan Respublikasının Mülki Məcəlləsi tətbiq edilir.

Mülki hüquq sistemi olan ölkələrdə Mülki Məcəllə bazar iqtisadiyyatı üçün qaydaları müəyyən edən əsas sənəddir və mülkiyyət, əqdlər, zərərin əvəzi və haqsız zənginləşmə kimi vacib sahələri əhatə edir. Bəzi mülki hüquq ölkələrində mülki məcəllələr ayrıca sahibkarlıq subyektlərini, fiziki şəxslərin hüquq qabiliyyətini, qəyyumluq, ailə münasibətləri, miras və hətta beynəlxalq xüsusi hüquqa aid münasibətləri tənzimləyir.

Ümumiyyətlə, hüquq aləmində məcəlləşdirmə haqqında kitab və elmi iş o qədər də çox deyil. Bu baxımdan fransız professoru Remi Kabrillakın hüququn məcəlləşdirməsinə həsr etdiyi fundamental işini xüsusi olaraq qeyd etmək olar [16, p. 10]. O, bu işində dünyada həyata keçirilmiş əsas qanunvericilik məcəlləşdirmələrini təhlil edir. Buradan məlum olur ki, dünyada ilk qanunlar külliyyatı bir çoxlarının düşündüyü kimi, eramızdan əvvəl 1780-ci ildə qədim Babilistanda qəbul edilmiş Hammurapi qanunları deyil, Urun Üçüncü Xanədanlığının qurucusu olan Şumer kralı Ur-Nammu tərəfindən təxminən eramızdan əvvəl 2100-2050-ci illərdə tərtib edilmiş Ur-Nammu qanunlar külliyyatıdır.

Müasir tarixdə isə keyfiyyəti və digər ölkələrə təsir gücünə görə 3 məcəlləni qeyd etmək olar: 1) 1804-cü il Fransa Mülki Məcəlləsi (Napoleon Məcəlləsi); 2) 1896-cı il Almaniya Mülki Qanunnaməsi; 3) 1907-ci il İsveçrə Mülki Məcəlləsi. 1804-cü il Fransa Mülki Məcəlləsi öz sadə dili ilə seçilir. 1896-cı il Almaniya Mülki Qanunnaməsinin dili isə heç də sadə deyil və çox vaxt belə bir fikir səslənir ki, bu hüquqi akt geniş ictimaiyyət üçün deyil, daha çox peşəkar hüquqşünaslar üçün nəzərdə tutulub. Buna baxmayaraq, Almaniya Mülki Qanunnaməsi yüksək hüquq texnikası ilə fərqlənir. 1907-ci ildə isə bu iki mülki məcəllənin əsasında İsveçrə Mülki Məcəlləsi qəbul edildi. İsveçrə Mülki Məcəlləsi bir növ özündə Fransa Mülki Məcəlləsinin sadə dilini və Almaniya Mülki Qanunnaməsinin yüksək hüquq texnikasını birləşdirib. XX əsrdə bir çox ölkələrdə qəbul edilmiş mülki məcəllələr məhz bu 3 sənəd əsasında hazırlanmışdır.

Tarixboyu Azərbaycanın qədim dövlətlərində zəngin mülki qanunvericilik ənənələri olub və müxtəlif dövrlər ərzində mülki hüquq sahəsindəki qanunların məcəlləşdirilməsi yolu ilə külliyat, toplu və məcəllələr tərtib edilib. Bunun bariz nümunəsi kimi, Atropatena dövründə yaradılmış zərdüştiliyin müqəddəs kitablar külliyyatı olan "Avesta"nı, Qafqaz Albaniyası dövründə hökmdarı III Vaçaqan tərəfindən qəbul edilmiş "Aquen Qanunlar Toplusu"nu, Sasanilər İmperiyası dövründə qəbul edilmiş "Matikan e Hazar Datastan"ı, Ağqoyunlu dövlətinin başçısı Uzun Həsən tərəfindən tərtib edilmiş "Uzun Həsənin Qanunnaməsi"ni, Səfəvilər İmperiyası dövründə sədr vəzifəsini tutan Mir Zeynəddin Seyid Əli tərəfindən tərtib edilmiş və I Şah Təhmasib tərəfindən qəbul edilmiş "Dəstur-ül-əməl"i, I Şah Abbasın qəbul etdiyi fərmanlar toplusu "Cəmeyi-Abbas"ı və xanlıqlar dövrünün "Car-Tala Qanunnaməsi"ni göstərmək olar.

Bu məqalədə əsasən son 100 ildə Azərbaycanda mülki qanunvericilik sahəsində həyata keçirilən məcəlləşdirmə fəaliyyəti haqqında məlumat verilir. XX əsr ərzində Azərbaycanda bir çox digər ölkələrlə müqayisədə kifayət qədər çox, daha dəqiq desək tam 3 dəfə mülki qanunvericiliyin məcəlləşdirilməsi vasitəsi ilə Mülki Məcəllənin qəbul edilməsi baş tutub. Bu, iki dəfə - 1923-cü və 1964-ci illərdə Sovet İttifaqı dövründə, bir dəfə isə -1999-cu ildə müstəqil Azərbaycan Respublikası dövründə baş tutub.

**I. 1923-cü il Azərbaycan SSR-in Mülki Məcəlləsi**

28 may 1918-ci ildə elan edilmiş və gərgin siyasi-ictimai şəraitə görə cəmi 23 ay yaşamış Azərbaycan Demokratik Respublikası (ADR) dövründə ölkədə hüququn müxtəlif sahələrində kifayət qədər geniş qanunvericilik fəaliyyəti həyata keçirilsə də, bu qısa müddət ərzində Konstitusiya və Mülki Məcəllə qəbul etmək mümkün olmamışdır.

28 aprel 1920-ci ildə bolşevik Rusiyası Azərbaycanı işğal edərək, demokratik respublikanın əvəzinə Azərbaycanda Sovet Sosialist Respublikası qurdu. ADR-in süqutundan sonra Azərbaycanda ali qanunvericilik və icra hakimiyyətini həyata keçirən faktiki ali hakimiyyət orqanı olan Azərbaycan SSR İnqilab Komitəsinin ölkədə mülki hüquq sahəsində ilk tədbirlərdən biri torpaq üzərində xüsusi mülkiyyətin ləğv edilməsi olmuşdu. 5 may 1920-ci ildə qəbul edilmiş dekretə əsasən, mülkədar, xan, bəy, habelə məscid, kilsə, monastır torpaqları və onların əmlakları müsadirə edilərək əməkçi xalqa verilirdi [2, s. 388]. Beləliklə, Azərbaycan xalqı azadlığını itirdi, insanların mülkü müsadirə edildi, xüsusi mülkiyyət növü ləğv edildi və bütün sərvətlər dövlətə verildi.

Azərbaycanda Sovet rejimi qurulduqdan sonra ADR-in qurduğu hüquq sistemində böyük dəyişikliklər baş verdi və Azərbaycan tam olaraq rus sosialist hüquq sistemini qəbul etdi. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra mülki hüquq sisteminin Rusiya Sovet Federativ Sosialist Respublikasının (RSFSR) sosialist hüququ əsasında tamamilə əvəzlənməsi baş verdi. Sovet dövründə Azərbaycanın mülki qanunverciliyi digər Sovet İttifaqı respublikalarının mülki qanunvericiliyindən bəzi istisnalar olmaqla ciddi şəkildə fərqlənmirdi. Buna baxmayaraq, XX əsrin 20-ci illərində ölkədə ailə-nikah və vərəsəlik sahəsində hələ də ənənəvi hüquq və adət hüququnun bəzi xüsusiyyətləri qorunub saxlanmışdır.

6 may 1921-ci ildə I Ümumazərbaycan sovetlər qurultayı fəaliyyətinə başladı və bunun nəticəsində Azərbaycan tamamilə sovet sosialist ölkəsinə çevirildi. Həmin ilin 19 may tarixində isə Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan SSR-i) ilk Konstitusiyasını qəbul etdi.

Ümumiyyətlə Sovet İttifaqının ilk illərində Azərbaycanda mülki qanunvericilik Leninin "Biz heç bir xüsusi mülkiyyət tanımırıq, bizim üçün iqtisadiyyatda heç bir şey özəl deyil, ictimaidir" şüarına sadiq idi [9, c. 389]. Bolşeviklər hakimiyyətə gəldikdən sonra düşünürdü ki, quracaqları ölkədə bütün ictimai və hüquqi münasibətlər publik xarakter daşıyacaq və buna görə mülki hüququ tamamilə ləğv etməyi planlaşdırırdılar. Bu səbəbdən bəzi Sovet hüquqşünasları mülki məcəllədən daha çox iqtisadi məcəllə və ya sosial məcəllənin qəbul edilməsini təklif edirdilər. Lakin dərin iqtisadi böhran özəl sərmayələrin, o cümlədən xarici kapitalın cəlb edilməsinin zəruriliyini göstərirdi. 1921-ci ildə Lenin tərəfindən irəli sürülmüş "Yeni İqtisadi Siyasət" (YİS) yalnız yeni mülki hüquq sisteminin dəstəyi ilə müvəffəqiyyət əldə edə bilərdi. 31 oktyabr 1922-ci ildə RSFSR-in Mülki Məcəlləsi qəbul edildi və bundan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin tapşırığı əsasında Ədliyyə Xalq Komissarlığı Rusiyanın qanunvericiliyi əsasında yeni Mülki Məcəllə hazırlmağa başladı.

16 iyun 1923-cü ildə Azərbaycan SSR MİK ikinci çağırış üçüncü sessiyasında Azərbaycan SSR-in ilk Mülki Məcəlləsi (bundan sonra 1923-cü il Azərbaycan SSR-in MM-i) qəbul edildi və elan edildiyi gündən qüvvəyə mindi, həmin ilin 8 sentyabr tarixində isə Mülki Məcəllə "Bakinskiy Raboçiy" jurnalında dərc edildi. 1923-cü il Azərbaycan SSR-in MM-i özünəməxsusluğu ilə seçilirdi. Digər Sovet İttifaqı respublikalarından fərqli olaraq, 1923-cü il Azərbaycan SSR-in MM-ə nikah, ailə və qəyyumluq hüququnu əhatə edən bölmələr də daxil edilmişdi. Digər ittifaq ölkələrində isə bu qeyd olunan münasibətlər ayrıca məcəllə və qanunlarla tənzimlənirdi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin bu Mülki Məcəllə ilə əlaqədar qərarında qeyd olunmuşdur ki, 28 aprel 1920-ci ildən 1923-cü il Azərbaycan SSR-in MM-i qüvvəyə mindiyi tarixə qədər mövcud olan mülki hüquq münasibətlərindəki mübahisələr, baş verdiyi anda qüvvədə olan qanunvericiliklə tənzimlənir, ancaq o dövrdə qüvvədə olan qanunvericilikdə boşluqların olması səbəbindən, yeni MM-nin istifadə olunması tövsiyə edilir. Əvvəllər baş vermiş mübahisələr üçün 1923-cü il Azərbaycan SSR-in MM-i yalnız sovet dövlətinə sərf etdiyi hallarda tətbiq olunurdu, məcəllənin devirilmiş ADR hökümətinin lehinə təsfir edilməsinə icazə verilmirdi [2, c. 389].

Bu qanunvericilik aktı Azərbaycan tarixində ilk Mülki Məcəllə oldu. Eyni zamanda, bu, dünyada sosialist dövlətinə aid olan ilk mülki məcəllələrindən biri idi. Bu Məcəllənin qüvvəyə minməsi ilə YİS kontekstində mülki hüquq institutlarının inkişafındakı iki ildən az bir təcrübə ümumiləşdirilərək Azərbaycanda sovet mülki hüququnun formalaşması rəsmiləşdirildi.

1923-cü il Azərbaycan SSR-in MM-i YİS-in mahiyyəti və həyata keçirilməsi qaydaları ilə bağlı bir çox məsələni özündə ehtiva edirdi. Mülki Məcəllə 8 bölmə (ümumi hissə, əşya hüququ, öhdəçilik hüququ, müəlliflik hüququ, vərəsəlik hüququ, nikah hüququ, ailə hüququ, qəyyumluq hüququ) və 524 maddədən (onlardan yalnız 83-ü şərhlə verilmişdir) ibarət idi.

Ümumi hissədə 51 maddə və 5 fəsil var idi. Burada əsas müddəalar, hüquq subyektləri (şəxslər), hüquq obyektləri (əmlak), əqdlər və iddia müddəti haqqında normalar öz əksini tapmışdır. Əsas müddəalarda ictimai-təsərrüfat təyinatlarına zidd olmayan mülki hüquqların qanunla qorunduğu (1-ci maddə) və mülki hüquqa dair mübahisələrin məhkəmə qaydası ilə həll edilməli olduğu təsbit edilmişdi (2-ci maddə). Hüquq subyektləri (şəxslər) üzrə normaları müəyyənləşdirən ikinci fəsil, iki qrupa ayrılan 16 maddədən ibarət idi: fiziki şəxslər (4-12-ci maddələr) və hüquqi şəxslər (13-20-ci maddələr). 5-ci maddədə vətəndaşların hüquq qabiliyyətinin əhatə dairəsi əks olunurdu. Maraqlı məqam ondan ibarət idi ki, 1923-cü il Azərbaycan SSR-in MM-i fiziki şəxslərdə hüquq qabiliyyətinin meydana gəlmə anını konkret olaraq müəyyənləşdirməmişdir. İki azyaşlıq dövrü müəyyən edilirdi: 14 yaşa qədər və 14 ilə 18 yaş arası. Məcəllədə müəyyən edilmişdir ki, hər bir Azərbaycan vətəndaşı respublika ərazisində sərbəst hərəkət etmək, əmlak əldə etmək və ya başqa bir şəxsə vermək, sənaye və ticarət müəssisələri təşkil etmək, qanunla qadağan olunmayan peşələr seçmək və əqdlər bağlamaq hüququna malikdir. 8-ci maddə fəaliyyət qabiliyyətinə xitam verilməsinin əsaslarını müəyyən etmişdir. Məcəlləyə görə, əmlak əldə etmək, öhdəçiliklərdə çıxış etmək, məhkəmədə iddia qaldırmaq və cavab vermək qabiliyyətinə malik olan şəxslərin birləşmələri, idarələr və ya təşkilatlar hüquqi şəxs hesab olunurdu. Altı maddəni əhatə edən üçüncü fəsildə hüquq obyektlərinə (əmlak) dair məsələlər tənzimlənirdi (20-25-ci maddələr). Mülki dövriyyəsi qanunla qadağan olunmayan hər hansı bir əmlak mülki obyekt kimi çıxış edə bilərdi. Mülki dövriyyədən çıxarılan əmlak isə yalnız qanunda müsbət göstərildiyi hədlərdə mülki hüquq obyekti ola bilərdi. Torpaq dövlət malı hesab olunurdu və xüsusi dövriyyənin predmeti ola bilməzdi. Torpağa yiyələnmək yalnız istifadə etmə hüququ şəklində həyata keçirilə bilərdi. Məcəllənin əqdləri tənzimləyən dördüncü fəsli on səkkiz maddədən ibarət idi (26-43-cü maddələr).

27-ci maddədə əqdlərin formaları haqqında danışılırdı. Məcəllənin beşinci fəsli "İddia müddəti" adlanırdı və səkkiz maddədən ibarət idi (44-51-ci maddələr). Burada iddia müddətinin anlayışı, iddia müddətinin başlanması, dayandırılması və bərpası qaydaları müəyyən edilirdi. İddia müddəti 3 il təşkil edirdi.

Məcəllənin ikinci bölməsi "əşya hüququ" adlanırdı. Bu bölmə üç fəsildən (mülkiyyət hüququ, tikinti hüququ, əmlakın girov qoyulması) ibarət idi. Mülki Məcəllə 3 mülkiyyət formasını təsbit edirdi: dövlət mülkiyyəti (milliləşdirilmiş və bələdiyyələşdirilmiş), kooperativ mülkiyyət və xüsusi mülkiyyət. Bələdiyyələşdirilməmiş tikintilər, xüsusi qanunlarla nəzərdə tutulan miqdardan artıq olmayan muzdlu fəhləsi olan ticarət müəssisələri, sənaye müəssisələri, istehsal alətləri və vəsaiti, pullar, qiymətli kağızlar və sair qiymətli əşyalar, o cümlədən qızıl və gümüş sikkələr, xarici valyuta, ev ləvazimatı, təsərrüfatda və şəxsi istifadədə işlənən əşyalar, satışı qanunla qadağan edilməyən əmtəələr və xüsusi dövriyyədən götürülməyən hər cür əmlak xüsusi mülkiyyət predmeti ola bilərdi. Mülkiyyətin müsadirə olunmasına yalnız qanunla müəyyən edilmiş xüsusi hallarda cəza olaraq icazə verilirdi. Əsas mülkiyyət forması kimi dövlət mülkiyyətinə üstünlük verilirdi. Torpaq, yeraltı sərvətlər, meşələr, sular, ümumi istifadədə olan dəmir yolları, onların hərəkətedici avadanlığı ancaq dövlət mülkiyyəti ola bilərdi. İkinci bölmənin ikinci fəsli tikinti hüququ adlanırdı, üçüncü fəsil isə əmlakın girov qoyulması məsələlərinə həsr olunmuşdu.

Məcəllənin üçüncü bölməsi "öhdəçilik hüququ" adlanırdı. Buraya ümumi müddəalar, müqavilələrdən baş verən öhdəçiliklər, xüsusən əmlak icarəsi, alqı-satqı, mübadilə, bağış, müqavilə, sifariş, satınalma, saxlama və ortaqlıq kimi öhdəçilik münasibətləri daxil idi. Bu bölmə zərərə görə məsuliyyət məsələlərini də əhatə edirdi.

Dördüncü bölmə "müəlliflik hüququ" adlanırdı. Maraqlı məqam ondan ibarət idi ki, bu dövrdə Sovet İttifaqı respublikaları arasında yalnız Azərbaycanın Mülki Məcəlləsində müəlliflik hüququ bölməsi var idi, digər respublikalarda bu sahə ayrıca qanunvericilik aktları ilə tənzimlənirdi [10, с. 35].

Beşinci bölmə "vərəsəlik hüququ" adlanırdı. Bu bölmə miras formaları, varislərin dairəsi, miras əmlakın kütləsi, mirasın qaydası, qanun və vəsiyyət üzrə vərəsəlik məsələlərini əks etdirirdi. Qanuna uyğun olaraq, qanun və vəsiyyət üzrə vərəsəliyə çağırılan şəxslərin dairəsi, birbaşa enən xətt üzrə qohumluqla (övladlarla, nəvələrlə və nəticələrlə), oğulluğa götürülənlərlə (onların enən xətt üzrə qohumluğu ilə) və vəsiyyətçinin ölümünədək bir ildən az olmayan müddətdə tamamilə onun himayəsində olan yoxsul və əmək bacarığını itirmiş şəxslərlə məhdudlaşırdı.

Nəhayət, məcəllənin son üç bölməsi nikah, ailə və qəyyumluq hüququna həsr edilmişdi. Nikahın bağlanması qanunla müəyyən edilmiş qaydada xüsusi dövlət orqanlarında qeydiyyata alınmaqla həyata keçirilməli idi. Məcəllənin 442-ci maddəsinə görə, nikah Xalq Məhkəməsi tərəfindən yalnız qanunla qəti şəkildə nəzərdə tutulan hallarda etibarsız hesab edilə bilərdi. Həyat yoldaşlarından birinin ölümü də boşanma üçün əsas hesab olunurdu. Dini ayinlər əsasında və ruhanilərin köməyi ilə bağlanmış nikah Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı Şöbəsi (ZAQS) tərəfindən qeydiyyata alınmış nikaha bərabər deyildi və həmin nikaha daxil olan şəxslər üçün heç bir hüquq və öhdəlik yaratmırdı. Bununla yanaşı, Məcəllənin dərc edildiyi günə kimi əvvəllər qüvvədə olmuş qanunlarda nəzərdə tutulan şərtlər və formalara əməl edilməklə bağlanmış dini və kilsə nikahları qeydiyyatdan keçmiş nikah qüvvəsinə malik idi. Nikah üçün vacib şərtlərdən biri də ər-arvadın razılığı idi. Nikah yaşı qadınlar üçün 16, kişilər üçün isə 18 yaş olaraq müəyyən olunmuşdu. Nikahdan kənar doğulan uşaqlar nikahsız doğulanlara bərabər tutulurdu. Qəyyum və ya hami təyin edilməsindən imtina olunmasına icazə verilmirdi. Məcəllə qəyyum və ya hami təyin

edilmiş şəxslər üçün tələblərin siyahısını müəyyən etmişdir. 492-ci maddəyə görə, yetkinlik yaşına çatmayanlara, ruhi xəstələrə, israfçılara və ictimai himayəsiz qoyulmasını təhlükəli və ya qeyri-mümkün edən xüsusiyyəti aşkar olunmuş şəxslər üzərində qəyyumluq təyin edilirdi.

1928-ci ildə Azərbaycan SSR-in nikah, ailə, qəyyumluq və vətəndaş vəziyyəti aktları haqqında Məcəlləsinin qəbul edilməsi ilə əlaqədar olaraq nikah, ailə və qəyyumluq hüququ haqqındakı bölmələr Mülki Məcəllədən çıxarıldı.

İllər keçdikcə 1923-cü il Azərbaycan SSR-in MM-nin maddələrinin həm məzmun, həm də şərh etmə baxımından çətinləşdirilməsi müşahidə edilirdi. Üstəlik, mülki hüquqda sosialist prinsiplərinin gücləndirilməsi və planlaşdırma elementlərinin daxil edilməsi ilə, imperativ hüquq normalarının da sayı artırdı.

1923-cü il Azərbaycan SSR-in MM-i Almaniya təcrübəsinə əsaslansa da, çox yarımçıq xarakter daşıyırdı, belə ki, Məcəllə əsasən sosialist təşkilatlar arasında inzibati xarakter daşıyan normativ hüquqi aktlardan irəli gələn münasibətləri və vətəndaşlar arasında olan məişət münasibətlərini tənzimləyirdi.

Sovet İttifaqı respublikalarının XX əsrin 20-ci illərindəki mülki məcəllələri qəbul edildiyi gündən, SSRİ-nin hüquq mütəxəssisləri tərəfindən keçid dövrünün müvəqqəti qanunvericilik aktları kimi dəyərləndirilirdi. Bu mülki məcəllələrin hazırlanması işinə rəhbərlik edən hüquq elmləri professoru, sosial-demokrat, bolşevik Aleksandr Qoyxbarq keçid dövrünün Mülki Məcəlləsi haqqında danışarkən, dövlətin mənafelərinin fərdi sahibkarlardan qorunması kimi xüsusiyyətini qeyd edirdi [7, c. 5-6].

1923-cü ilin Mülki Məcəlləsində xüsusi mülkiyyətin məhdudlaşdırılması və mülkiyyət münasibətlərinin tənzimlənməsinin ictimai-hüquqi mahiyyəti nəzərə çarpır, yəni sosialist dövlətin mənafelərinin fərdlərdən qorunmasının təmin edilməsi məqsədilə, publik hüququn xüsusi hüquq üzərində üstünlüyü izlənilir. 1923-cü il Azərbaycan SSR-in MM-nin 6-cı maddəsi mülki hüquqların yalnız məhkəmə hökmü ilə deyil, qanunla müəyyən edilmiş digər hallar və qaydalarla da məhdudlaşdırılma ehtimalından bəhs edir. Məsələn, qanundan kənar şəxs kimi elan edilmiş insanlar mülki hüquq qabiliyyətinə sahib deyildi, çünki qanun onları qorumurdu. Bu deyilənlərlə yanaşı, bazar münasibətlərinin inkişafı üçün götürülmüş kurs nəzərə alınaraq, 1923-cü ilin Mülki Məcəlləsinin vəzifələrindən biri kimi fərdi sahibkarların fəaliyyətinin hüquqi tənzimlənməsi müəyyənləşdirilirdi. Məcəllə Sovet dövlətinə xas olan normalardan əlavə olaraq kapitalist ölkələrin hüququnun əsasını təşkil edən bazar iqtisadiyyatına xas olan hüquq qaydalarını da özündə cəmləşdirirdi. Məcəllənin normaları, dövlətin kapitalist elementlərin fəaliyyətinə icazə verdiyi çərçivəni hüquqi olaraq təyin edirdi və YİS-dən sui-istifadəyə qarşı tədbirlər sistemi qururdu. 1923-cü il Azərbaycan SSR-in MM-də ahəngdar anlamda həm burjua, həm də sovet təbiətli hüquq normaları mövcud idi. Bunun əsas səbəbi isə YİS-in tətbiqinə başlanması idi, məhz YİS Sovet qanunlarının məcəlləşdirilməsinə təkan verən əsas amil idi.

Yaranmış yeni növ iqtisadi münasibətləri tənzimləyən 1923-cü il Azərbaycan SSR-in MM-i ölkədəki əmlak münasibətlərini sosializm quruculuğunun mənafeylərinə uyğun nizamlayırdı. Məcəllənin bəzi müddəaları deklarativ və ziddiyyətli idi. Beləliklə, 1923-cü il Azərbaycan SSR-in MM-i Azərbaycanda mülkiyyət münasibətlərinin uzun illər ərzində, daha dəqiq desək, 40 ildən çox bir müddətdə tənzimlənməsi üçün möhkəm və çevik bir alətə çevirildi.

## II. 1964-cü il Azərbaycan SSR-in Mülki Məcəlləsi

İkinci Dünya Müharibəsindən sonra SSRİ-nin inkişafı əhəmiyyətli dərəcədə iqtisadi yüksəliş və yeni mülki qanunvericilik tələb edən sosial islahatlarla səciyyələnirdi. Artıq XX əsrin 60-ci illərində SSRİ-də yeni mülki məcəllənin hazırlaması üçün zərurət yaranmışdır, belə ki, Mərkəzi İcraiyyə Komitəsinin sessiyalarında və sessiyalararası dövrdə MİK-in Rəyasət Heyəti tərəfindən köhnəlmiş və artıq dövrün tələblərinə cavab verməyən 20-ci illərin Mülki Məcəlləsinə çoxsaylı əlavələr və düzəlişlər edilirdi. 11 fevral 1957-ci ildə "İttifaq respublikaları məhkəmələrinin quruluşu, mülki, cinayət və prosessual məcəllələrin qəbuluna dair ittifaq respublikalarının qanunvericiliyinin yurisdiksiyasına istinad edilməsi haqqında" qanunun qəbul edilməsi ilə, Azərbaycanda yeni mülki məcəllənin qəbul edilməsi üçün rəsmi olaraq imkan yarandı[1] .

8 dekabr 1961-ci ildə SSRİ Ali Soveti, SSRİ və İttifaq respublikalarının Mülki Qanunvericiliyinin Əsaslarını qəbul etdi və bu Əsaslar 1 may 1962-ci il tarixində qüvvəyə mindi. Bu Əsaslar SSRİ-nin mülki hüququn əsas müddəalarını birləşdirən məcəlləşdirilmiş qanunvericilik aktı idi[2].Mülki qanunvericiliyin Əsasları preambula və 8 bölmədən (cəmi 129 maddə) ibarət idi: ümumi müddəalar, mülkiyyət hüququ, öhdəlik hüququ, müəllif hüququ, kəşf hüququ, ixtiraçılıq hüququ, vərəsəlik hüququ, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq qabiliyyəti. Bu qanunvericilik aktının qəbul edilməsi ilə yeni mülki məcəllənin layihəsinin hazırlanması ilə bağlı işlər sürətləndirildi.

İttifaq respublikalarının mülki məcəllələrinin layihələri nəzərdən keçirilərkən mülki qanunlarla tənzimlənməli olan münasibətlər dairəsinin və mülki məcəllə sərhədlərinin müəyyənləşdirməsi məsələlərinə xüsusi diqqət yetirilirdi. SSRİ ilə İttifaq respublikalarının mülki qanunvericiliyi arasındakı əlaqə problemi, mülki məcəllələrin sistemi, mülki hüquq institutlarının məzmunu (kolxoz həyətinin mülkiyyəti, ziyan vurma öhdəlikləri, əldə etmə müddəti, vərəsəlik və s.) və qanunvericilik texnikasına böyük önəm verilirdi. Yeni mülki məcəllələrin qəbul edilməsi ilə bağlı respublikalar tərəfindən irəli sürülən bir çox təkliflər ümumittifaq əhəmiyyətinə malik olması səbəbindən mərkəzi rəhbərlik tərəfindən qəbul edilmirdi. Bununla yanaşı, bu dövrdə müxtəlif respublikalardan olan hüquq ekspertləri arasında təcrübə mübadiləsi böyük əhəmiyyət kəsb edirdi.

Beləliklə, SSRİ-dəki ikinci ümumittifaq məcəlləşdirilməsi çərçivəsində 1961-ci ildə hazırlanmış Mülki qanunvericiliyin Əsaslarına müvafiq olaraq, 11 sentyabr 1964-cü ildə Azərbaycan SSR Ali Soveti tərəfindən Azərbaycan SSR-in sayca ikinci Mülki Məcəlləsi (bundan sonra - 1964-cü il Azərbaycan SSR-in MM-i) qəbul edildi və 1 mart 1965-ci ildən qüvvəyə mindi. 1964-cü il Azərbaycan SSR-in MM-i yenə mahiyyət etibarı ilə, eyni ildə qəbul edilmiş RSFR-in Mülki Məcəlləsindən o qədər də fərqlənmirdi. Yeni Mülki Məcəllə 9 bölmə və 574 maddədən ibarət idi: 1) Ümumi qaydalar; 2) Nümayəndəlik və etibarnamə; 3) Mülkiyyət hüququ; 4) Öhdəçilik hüququ; 5) Müəlliflik hüququ və əlaqəli hüquqlar; 6) Kəşf hüququ; 7) İxtira, səmərələşdirici təklif və sənaye nümunəsi üçün hüquq; 8) Vərəsəlik hüququ; 9) Xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin hüquq qabiliyyəti, xarici dövlətlərin mülki qanunlarının və beynəlxalq müqavilələrin tətbiqi. Göründüyü kimi, 1964-cü il Azərbaycan SSR-in MM-ə müəlliflik hüququ və əlaqəli hüquqlar, kəşf hüququ, ixtira hüququ və beynəlxalq xüsusi hüquq üzrə yeni bölmələr daxil edilmişdi.

---

[1] Закон СССР от 11.02.1957 г. «Об отнесении к ведению союзных республик законодательства об устройстве судов союзных республик, принятия гражданского, уголовного и процессуальных кодексов»
[2] Закон СССР от 08.12.1961 г. «Об утверждении Основ гражданского законодательства Союза ССР и союзных республик».

1964-cü il Azərbaycan SSR-in MM-i daha çox siyasi bəyannamə və ya konstitusiya müddəasına bənzəyən preambula ilə başlayırdı. Preambulada Sovet İttifaqının sosializmin tam və qəti qələbəsinə nail olaraq, geniş kommunizm cəmiyyəti quruculuğuna qədəm qoyduğu elan edilirdi. Sovet hüquqşünasları Mülki Məcəllənin preambulasına bu cür yarı konstitusiya müddəalarını yaratmaqla, kommunizmin bu mərhələdəki hədəflərini, sosialist iqtisadiyyatı və onun gələcəyini təsvir etmişdir. Preambulaya görə, Sovet mülki qanunvericiliyinin əsas məqsədi kommunizm quruculuğu problemlərinin həllinə töhfə vermək idi. Qeyd etmək lazımdır ki, hətta 1923-cü il Azərbaycan SSR-in MM-nin, 1964-cü il Azərbaycan SSR-in MM-i kimi siyasi ideologiyaya bu qədər bağlılığı yox idi.

Bununla yanaşı, qeyd olunmaldır ki, 1964-cü il Azərbaycan SSR-in MM-dəki müddəalar SSRİ-də mülki hüququn sosial funksiyasının dərkində əhəmiyyətli bir təkamül göstərir. Belə ki, 1920-ci illərdə mülki hüquq kommunist cəmiyyətdə yoxa çıxacaq bir “burjua hüququnun dar üfüqü” kimi qəbul olunsa da, 1960-cı illərdə mülki hüquq artıq kommunist cəmiyyətinin qurulmasına töhfə verən bir vasitə kimi qəbul edilirdi [19, c. 576].

1923-cü il Azərbaycan SSR-in MM-i ilə müqayisədə 1964-cü il Azərbaycan SSR-in MM-i daha yaxşı struktur və qanunvericilik texnikası nümayiş etdirirdi. Bu Məcəllə əqli mülkiyyət və beynəlxalq xüsusi hüquqla bağlı ayrıca bölmələr ehtiva edir və daha geniş bir öhdəçilik hüququ sistemini təqdim edirdi. Ümumiyyətlə, 1964-cü il Azərbaycan SSR-in MM-i, demək olar ki, “kapitalist” mülki məcəllələri ilə eyni münasibətləri eyni vasitələrlə tənzimləyirdi.

1964-cü il Azərbaycan SSR-in MM-i ilə Qərb ölkələrinin mülki məcəllələri arasındakı "demarkasiya xətti" mülkiyyət qanunvericiliyində idi. 1964-cü il Azərbaycan SSR-in MM-i yalnız bir həqiqi hüquq tanıyırdı: mülkiyyət hüququ. Mülkiyyətin isə öz növbəsində yalnız iki növü var idi: sosialist mülkiyyəti və şəxsi mülkiyyət. Sosialist müəssisələrin mülkləri üzərindəki hüquqları xaricində 1964-cü ilin MM-i, 1923-cü ilin MM-dən fərqli olaraq, məhdud mülkiyyət hüquqlarını (məsələn, tikinti hüququ) tanımırdı. Görkəmli rus hüquq alimi Yevgeniy Suxanov hesab edir ki, İttifaq respublikalarının 1964-cü il MM-dən məhdud mülkiyyət hüquqlarının çıxarılmasının əsas səbəbi dövlətin torpaq hüququnun faktiki olaraq eksklüziv olması və servitudlar (başqalarının əmlakından istifadə etmək hüququ) da daxil olmaqla digər məhdud hüquqların mövcudluğuna imkan verilməməsi idi [20, c. 104].

Dövlət mülkiyyətinə həsr olunmuş 89-cü maddənin birinci abzasında açıq şəkildə tavtologiyaya yol verilir: “Dövlət bütün dövlət əmlakının yeganə mülkiyyətçisidir". Lakin, müəllifin fikrincə, bu müddəa məqsədyönlü şəkildə bu formada tərtib olunmuşdur, çünki bu cür formulirovka sosialist müəssisələrinin öz mülkiyyətlərini mülkiyyət hüququ kimi göstərmə cəhdlərini sıfıra endirirdi. Bu maddənin ikinci bəndində sosialist müəssisələrin mülkləri üzərində həqiqi hüququ dəqiq şəkildə müəyyənləşdirilir: “Dövlət təşkilatlarına verilmiş dövlət əmlakı bu təşkilatların əməli idarəçiliyindədir, həmin təşkilatlar onların fəaliyyət məqsədlərinə, plan tapşırıqlarına və əmlakın təyinatına müvafiq olaraq qanunla müəyyən edilmiş dairədə əmlaka sahiblik, əmlakdan istifadə və onun üzərində sərəncam vermək hüququnu həyata keçirirlər." Həmin dövrdə bu "əməli idarəçilik" anlayışının hüquqi təbiəti Sovet sivilistləri arasında qızğın müzakirələrə səbəb olmuşdu. Bəzi mülki hüquq elminin fundamental tədqiqatçıları düşünür ki, bəlkə də, belə bir həqiqi hüququn yaradılması Sovet hüquqşünaslarının hüquq elminə verdiyi ən diqqətəlayiq töhfəsidir. Əslində, "əməli idarəçilik" anlayışı 1964-cü ilin MM-ə aid bir yenilik deyildi, belə ki, bu hüquqi anlayış hələ 1921-ci ildə YİS-in təqdim edilməsi dövründə artıq mövcud idi və Sovet hüquq doktrinası tərəfindən tanınırdı, sadəcə olaraq, 1923-cü ilin MM-ə rəsmi olaraq

daxil edilməmişdi. Məhz elə bu səbəbdən Sovet müəssisələrinin mülkiyyət hüquqlarının xarakteri, 1920-ci illərdə elmi mübahisələrin mövzusu olmuşdu.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru Boris Martınovun irəli sürdüyü nəzəriyyəyə görə, Sovet mülki hüququnda dövlətlə müəssisələr arasındakı münasibətlər Roma hüququndakı "fidusiya",[3] ümumi hüquqda isə "trast"[4] anlayışına bənzəyir. Martınov Sovet dövləti və sosialist müəssisələr arasında mülkiyyət hüquqlarının bölgüsünü izah etmək məqsədilə orta əsrlərin feodalizm dövrünə aid olan "bölünmüş mülkiyyət nəzəriyyəsi"ndən də isifadə edir. Bu əsasda, o, roma hüququndakı dominium direktum (birbaşa mülkiyyət) anlayışını dövlətə, dominium utile (asılı mülkiyyət) anlayışını isə müəssisələrə aid edirdi [15, c. 211-212]. Bununla belə, Martınovun bu nəzəriyyəsi fidusiya, bölünmüş mülkiyyət və trast anlayışları arasında olan substantiv fərqlərə məhəl qoymur. Belə ki, fidusiya anlayışında fidusiar mülkiyyət sahibi olmasa da, trast və bölünmüş mülkiyyətdə bir neçə şəxs mülkiyyətin sahibi hesab edilir və mülkiyyət onların arasında bölünür .

Sonrakı dövrdə feodalizm dövrünün "bölünmüş mülkiyyət nəzəriyyəsi"nə dair hər hansı bir istinaddan qaçınmaq üçün Sovet alimləri mülkiyyətin həqiqi sahibinin yalnız dövlət olmasında israr etməyə başladılar. Onların fikrincə, müəssisələrin mülkləri üzərindəki hüququ - mülkiyyət hüququ deyil və ənənəvi mülkiyyət anlayışlarından istifadə etməklə təsnif edilməməlidir. Beləliklə, inzibati və mülki hüquq komponentlərini birləşdirən yeni bir həqiqi hüquq – "əməli idarəçilik" hüququ ortaya çıxdı [15, c. 215-221]. Sovet mülki hüquq doktrinası "əməli idarəçilik" hüququnu bir növ məhdud həqiqi hüquq kimi qəbul edirdi. Müəssisələr mülkiyyətçinin sahib olduğu bütün hüquqlardan (sahiblik, istifadə və sərəncam) istifadə edə bilsə də, dövlət mülkiyyətin artma hüququnu (aksessiya) öz əlində saxlayırdı və bu amil mülkiyyətin həqiqi sahibinin (yəni dövlətin) müəyyənləşdirilməsində həlledici məqam idi.

1964-cü il Azərbaycan SSR-in MM-i şəxsi mülkiyyətin sosialist mülkiyyətdən qaynaqlandığını və vətəndaşların ehtiyaclarını ödəmək üçün bir vasitə olduğunu elan edirdi. 1923-cü il Azərbaycan SSR-in MM-dən fərqli olaraq, 1964-cü il Azərbaycan SSR-in MM-də yalnız iki mülkiyyət növü tanınırdı: sosialist mülkiyyəti (dövlət (ümumxalq) mülkiyyəti, kolxozların, sair kooperativ təşkilatlarının, onların birləşmələrinin mülkiyyəti) və şəxsi mülkiyyət (vətəndaşların tələbatını ödəmək vasitələrindən biridir). Şəxsi mülkiyyət xüsusi mülkiyyətin əvəzləyicisi rolunu oynayırdı.

Bu Məcəllənin xüsusiyyəti, istehsal vasitələrinə və torpaq sahələrinə xüsusi mülkiyyətin olmadığı bir cəmiyyətdə mülkiyyət münasibətlərini tənzimləməsi idi. Şəxsi mülkiyyət təşviq edilmirdi və ona məhdudiyyətlər tətbiq edilirdi. Əslində, hüquqi təbiətinə görə Sovetlərin mülki hüquq doktrinasındakı şəxsi mülkiyyət məhdudlaşdırılmış xüsusi mülkiyyətdən başqa bir şey deyildir. Şəxsi mülkiyyətin sahibi yalnız fiziki şəxs ola bilər, şəxsi mülkiyyət müəyyən ölçüləri olan müəyyən obyektlərlə məhdudlaşır və nəhayət şəxsi mülkiyyət sahibinin maddi və mənəvi ehtiyaclarını təmin edilməsi məqsədi daşıyırdı. Vətəndaşların şəxsi mülkiyyətində olan əmlakdan "zəhmətsiz gəlirlər" əldə etməsinin qanunsuz olduğu xüsusi olaraq vurğulanırdı [1, mad. 88]. 1964-cü ilin Mülki Məcəlləsinin 101-ci maddəsində qeyd olunurdu ki, vətəndaşın şəxsi mülkiyyətində maksimum bir yaşayış evi və ya evin bir hissəsi ola bilər. Şəxsi mülkiyyət hüququ əsasında

[3]Fidusiya - mansipasiya yolu ilə öhdəliyin yerinə yetirilməsi halında, kreditorun borclunun mülkiyyətini qaytarmaq məcburiyyətində qalacağı şərti ilə borclunun əşyanı kreditorun mülkiyyətinə ayırmasıdır.
[4]Trast - xüsusi şərtlər və etibar əsasında əmlak sahibinin əmlakının idarə edilməsi məqsədilə banka, kredit təşkilatına və ya başqa təşkilata verilməsidir.

vətəndaşa məxsus olan yaşayış evinin və ya onun bir hissəsinin (hissələrinin) ümumi sahəsinin son həddi 60 kvadrat metrdən artıq olmamalı idi. Şəxsi mülkiyyət miras yolu ilə mülkiyyətçidən digər şəxslərə keçə bilirdi. Vətəndaş ianə və ya miras yolu ilə ikinci ev əldə edərsə, bir il ərzində öz mülahizəsinə görə həmin evlərdən hər hansı birini satmalı, bağışlamalı və ya sair üsulla özgəninkiləşdirməli idi. Bir il ərzində evi satmaq mümkün olmazsa, dövlət tərəfindən məcburi satış təşkil edilirdi. Alıcı olmaması səbəbindən evin məcburi qaydada da satılmasının mümkün olmadığı hallarda isə ev əvəzsiz olaraq dövlət mülkiyyətinə keçirdi [1, mad. 104]. Göründüyü kimi, bu cür hallarda, vətəndaşın mülkiyyət hüququ onun bəxtindən asılı idi: alıcı olduqda, mülkiyyətçi öz mülkiyyət hüququndan istifadə edə bilirdi, alıcı olmadıqda isə ev dövlət tərəfindən müsadirə edilirdi, digər sözlə dövlət vətəndaşı əmlakından məhrum edirdi.

Bütün bu məhdudiyyətlərə baxmayaraq, şəxsi mülkiyyət xüsusi mülkiyyyət hesab edilə bilərdi, çünki mülkiyyət sahibinə sahib olmaq, istifadə etmək və sərəncam vermək hüquqları verilirdi. Burada Sovet alimi Vladimir Qsovskinin "Sovet mülkiyyət hüququ göstərdi ki, hətta sosialist dövlətdə xüsusi mülkiyyətin az həcmdə olsa belə mövcud olması qaçılmazdır" fikri ilə razılaşmamaq olmur [19, c. 576].

Məcəllədə əqdlərin növləri müəyyən edilirdi: şifahi əqdlər və yazılı əqdlər. Yazılı əqdlər öz növbəsində iki yerə bölünürdü: sadə əqdlər və notariat qaydasında təsdiq edilməli olan əqdlər. Əqdlər şifahi formada 100 rubla qədər olan əməliyyatlar, habelə icrası anında həyata keçirilən əməliyyatlar zamanı bağlana bilərdi. Yazılı sadə formada əqdlər dövlət, kooperativ, ictimai təşkilatlar və vətəndaşların 100 rubldan çox olan əməliyyatları, habelə qanunun məcburi yazılı formada tələb etdiyi əməliyyatlar zamanı bağlanmalı idi. Məsələn, 50 rubldan çox olan bir kredit müqaviləsi sadə yazılı şəkildə bağlanmalı idi. Ev alqı-satqısı, bağış müqaviləsi, vəsiyyət kimi əməliyyat növləri isə notariat qaydasında təsdiqlənməli idi [1, mad. 39-41]. 1964-cü ilin MM-də ilk dəfə olaraq kənd təsərrüfatı məhsullarının kontraktasiya, yəni dövlət tərəfindən satın alma müqaviləsinin bağlanmasından irəli gələn münasibətlər tənzimlənirdi. Kontraktasiya müqaviləsi kənd təsərrüfatı məhsullarını becərən və istehsal edən kolxozlar, sovxozlar və digər təsərrüfatlarla bu məhsulları alan sosialist təşkilatlar arasında yaranan münasibətləri tənzimləyirdi. İqtisadi praktikada saxlanc müqaviləsinin olmasına baxmayaraq, 1923-cü il Azərbaycan SSR-in MM-də bu barədə bəhs edilmirdi. 1964-cü il Azərbaycan SSR-in MM-də isə saxlanc müqaviləsinə dair yeni maddələr (421-432-ci maddələr) əlavə edilmişdi.

Sovet xalqının faşist Almaniyasına qarşı mübarizədə göstərdiyi şücaət və qəhrəmanlıqlar zamanı, bir çox vətəndaş sosialist mülkiyyətini xilas edərkən, bombalamalar və digər düşmən əməliyyatları nəticəsində yaranan yanğından yaralanmışdı və 1923-cü il Azərbaycan SSR-in MM-də müvafiq müddəaların olmaması səbəbindən, məhkəmələr vətəndaşlara vurulan ziyana görə dövlət tərəfindən ödəniləcək təzminatı təyin etməkdə çətinliklə üzləşirdi. 1964-cü il Azərbaycan SSR-in MM-də isə bu praktika öz təcəssümünü tapdı, belə ki, Məcəlləyə sosialist əmlakını xilas edərkən dəymiş ziyanın ödənməsi maddəsi daxil edildi [1, mad. 468].

İlk dəfə olaraq Məcəllədə şərəf və ləyaqətin müdafiəsi maddəsi əmələ gəlmişdi [1, mad. 7]. Mülki qanunvericiliyin əsasları mülki hüquqların qorunmasının əsas metodu kimi məhkəmə icraatını müəyyənləşdirirdi. Məcəlləyə əsasən Azərbaycanda ümumi yurisdiksiya məhkəmələri, arbitrajlar, münsiflər məhkəmələri və yoldaşlıq məhkəmələri fəaliyyət göstərirdi.

Sosialist mülkiyyətinin üstünlük təşkil etməsi və xüsusi mülkiyyətin deqradasiyası SSRİ iqtisadiyyatında və cəmiyyətində mənfi tendensiyalar yaradırdı və 1980-ci illərin sonunda sosialist iqtisadiyyatının səmərəsizliyi artıq mübahisəsiz və qəbul edilən bir fakt idi. Çətinliklərin ram

edilməsi üçün Qorbaçov hökuməti "yenidənqurma" tətbiq etdi və ölkədə əvvəllər görünməmiş bir sıra siyasi və iqtisadi islahatlar həyata keçirildi. Lakin bu islahatlar effektiv olmadı və nəticə etibarı ilə 26 dekabr 1991-ci il tarixində SSRİ süquta uğradı.

## III. 1999-cu il Azərbaycan Respublikasının Mülki Məcəlləsi

XX əsrin sonu mülki hüququn müəyyən bir intibah dövrü hesab olunur və daha çox post-kommunist ölkələrdə baş verən islahatlarla əlaqələndirilir ki, bu da bazar iqtisadiyyatı və azad cəmiyyət qurma zərurəti ilə bağlı idi, belə ki, Sovet hüquq doktrinası hüququn publik və xüsusi hissələrə bölünməsini inkar edirdi.

Sovet İttifaqının süquta uğraması nəticəsində Azərbaycanda mövcud olan köhnə ictimai münasibətlər sistemi iflasa uğradı, ictimai-siyasi kontekst dəyişdi və bunun nəticəsində yeni faktiki situasiya yarandı. Azərbaycan, bazar yönümlü bir iqtisadiyyatın və qanunun aliliyinin inkişafına imkan vermək üçün cəmiyyət quruluşunu dəyişdirməli idi.

Cəmiyyət quruluşunu dəyişdirmək və lazımi siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi üçün ölkənin əsas qanunu – Konstitusiyanın qəbul edilməsi mütləq idi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiya layihəsinin hazırlanması məqsədilə 1994-cü ildə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Komissiya yaradıldı. Konstitusiya Komissiyasının bir illik fəaliyyət nəticəsində Konstitusiya layihəsi ümumxalq müzakirəsindən sonra 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq referendumunda qəbul edildi və həmin ilin 27 noyabr tarixində qüvvəyə mindi.

Yeni Konstitusiya müasir cəmiyyətin və dövlətin əsaslarını, siyasi institutları və Azərbaycan iqtisadiyyatının qurulmasının əsas prinsiplərini müəyyən etdi. Qəbul edilmiş yeni əsas qanun Azərbaycan Respublikasında həyatın müxtəlif sahələrini əhatə edən islahatların başlanması və həyata keçirilməsi üçün bir təkan oldu. Yeni Konstitusiyanın qəbul edilməsi ölkədə hüquq bərabərliyinin elan olunması və insan hüquqlarının qorunması baxımından mühüm addım idi. Beləliklə, yeni Konstitusiyanın qəbul edilməsi ilə Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində yeni mərhələyə qədəm qoyuldu.

Bu tarixi dövrdə ölkə iqtisadiyyatı yeni mərhələyə keçirilməli, müqavilə azadlığı prinsipi və xüsusi mülkiyyət hüququ möhkəmləndirilməli, sahibkarlıq fəaliyyəti üçün sabit və proqnozlaşdırılan hüquqi mühit təmin edilməli idi. Ölkəmizdə iqtisadi münasibətlərin bazar prinsipləri əsasında modernləşdirilməli, dövlət idarəçiliyi isə inzibati-əmr sistemindən demokratik sistemə keçməli idi. Sovet dövründə mövcud olan qanunlar iqtisadiyyatda dövlət mülkiyyəti və dövlət idarəçiliyi anlayışlarına əsaslanırdı və müstəqilliyin əldə edilməsindən sonra mülkiyyət haqqında tələsik hazırlanmış yeni qanunlar dövrün tələblərinə cavab vermirdi. Yaranmış bu vəziyyət, mülki hüquq münasibətlərini yeni siyasi və iqtisadi reallığa uyğunlaşdırmalı olan yeni bir fundamental hüquqi sənədin - mülki məcəllənin hazırlanmasını və qəbul edilməsini qaçılmaz etmişdi. 1990-cı illərdə Azərbaycan Respublikasında aparılan dərin və sürətli sosial islahatlar da yeni mülki məcəllənin ən qısa müddətdə qəbul edilməsini tələb edirdi. Azərbaycan Respublikasının mülki qanunvericiliyi praktik olaraq sıfırdan yaradılmalı idi, çünki keçmiş sovet dövrünün qanunvericiliyi mərkəzləşdirilmiş şəkildə tənzimlənən iqtisadiyyatın mənafeyinə xidmət edirdi və bazar iqtisadiyyatının qurulması üçün qətiyyən uyğun deyildi.

Azərbaycanın mülki qanunvericilik sahəsində təcrübəsi kifayət qədər deyildi, belə ki, ölkədə bu sahədə kifayət qədər peşəkar mütəxəssis yox idi, sovet dövründə ölkənin qanunvericiliyin yaradılmasında əsasən rusiyalı hüquq mütəxəssisləri iştirak etmişdir. Bunun nəticəsi

kimi müstəqilliyinin ilk 8 ilində Azərbaycan Respublikası yeni mülki məcəllə qəbul edə bilməmiş və yalnız Azərbaycan SSR-in 1964-cü il MM-ə dəyişikliklər etməklə kifayətlənmişdi. Beləliklə, gənc Respublika, qarşılıqlı əlaqəli, bir-birini tamamlayan hüquq normalarının kompleks və ardıcıl bir sistemini təmsil edən müasir mülki qanunvericilik aktı yaradılması vəzifəsi qarşısında qalmışdı.

Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid dərin bir transformasiya prosesini nəzərdə tuturdu. Bu transformasiya prosesi Qərb modelinə doğru yönəldilmiş geniş qanunvericilik islahatlarını əhatə edirdi. Yeni mülki məcəllənin layihəsinin hazırlanmasında almaniyalı hüquqşünasların rolunu xüsusi olaraq qeyd etmək lazımdır. 8 dekabr 1997-ci ildə Azərbaycan və Almaniya hökumətləri arasında imzalanmış Saziş əsasına Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ)[5] hüquqşünasları "Keçid dövrü ölkələrində hüquq islahatları" layihəsi çərçivəsində ölkəmizdə aparılan hüquq islahatlarına hərtərəfli dəstək göstərməyə başladı. GİZ bu layihəni Alman Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) adından həyata keçirirdi və layihənin MDB üzrə rəhbəri GİZ-in hüquqşünası, Bremen Universitetinin professoru Rolf Kniper idi. Alman hüquqşünasların Azərbaycandakı ilk layihələrindən biri Milli Məclisdə Rolf Kniper tərəfindən parlament üzvləri üçün keçirilmiş qanunvericilik layihələrinin hazırlanması üsulları haqqında seminar olmuşdur. Qeyd edildiyi kimi, Sovet illərində qanunlar əsasən Bakıda deyil, Moskvada hazırlanırdı, məhz buna görə Azərbaycanda müstəqilliyin ilk illərində qanun layihələrinin hazırlanması sahəsində mütəxəssis çox az idi. Qeyd olunmaldır ki, GİZ tərəfindən Azərbaycanla yanaşı, Gürcüstan, Ermənistan, Moldova, Monqolustan, Tacikistan, Türkmənistan və Özbəkistan kimi ölkələrin mülki məcəllələrinin layihələrinin hazırlanmasına da yardım göstərilmişdir.

Sual oluna bilər ki, adətən bu sahədə çox fəal olan ABŞ niyə Azərbaycanda aparılan hüquqi islahatları sahəsində fəal rol oynamırdı? Bunun əsas səbəbi 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən və ABŞ-ın Azərbaycana birbaşa dövlət yardımını yasaqlayan 907-ci düzəliş idi.

Alman mütəxəssislər Mülki Məcəllənin layihəsində icarə, əmlak və torpaq müqavilələri də daxil olmaqla əsasən vətəndaşların gündəlik həyatında vacib rol oynayan hüquq normalarının hazırlanmasında iştirak edirdi. Onlar vərəsəlik və ailə hüququ kimi sahələrin normalarının hazırlanmasında iştirak etmirdi, çünki bu sahələr özündə Azərbaycan xalqının xüsusiyyətlərini və ənənələrini daşıyırdı və bu sahəyə aid normaların xarici mütəxəssislər tərəfindən işlənməsi o qədər də düzgün olmazdı. Digər sözlə, almanlar əsasən iqtisadiyyatın inkişafında böyük rol oynayan müddəaların hazırlanmasında aktiv rol oynayırdı.

Nəhayət, müstəqilliyin əldə edilməsindən 8 il sonra, alman mütəxəssislərin də dəstəyi ilə 28 dekabr 1999-cu ildə müstəqil Azərbaycan Respublikasının Mülki Məcəlləsi (bundan sonra - 1999-cu il AR-nın MM-i) qəbul edildi və doqquz aydan sonra 1 sentyabr 2000-ci ildə qüvvəyə mindi. Maraqlı məqam ondan ibarətdir ki, ilkin olaraq 1999-cu il AR-nın MM-nin 1 iyun 2000-ci ildə qüvvəyə minməsi planlaşdırılsa da, bu 3 ay sonraya təxirə salındı.

Hal-hazırda qüvvədə olan və Azərbaycanın milli qanunvericilik sisteminin ən böyük həcmli hüquqi aktı olan 1999-cu ilin MM-i stukturuna görə ümumi və xüsusi hissələrə bölünür, 10 bölmə, 74 fəsil və 1325 maddədən ibarətdir.

1999-cu ilin MM-nin birinci bölməsi giriş müddəaları (mülki hüquq sahəsində qanunvericilik, mülki hüquq və vəzifələr, onların müdafiəsi), ikinci bölməsi şəxslər (fiziki və hüquqi şəxslər), üçüncü bölməsi əmlak və əşya hüququ, dördüncü bölməsi əqdlər, beşinci bölməsi müddətlər, altıncı

[5] Əvvəlki adı Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti (GTZ).

bölməsi öhdəlik hüququnun ümumi hissəsi, yeddinci bölməsi müqavilələrdən əmələ gələn öhdəliklər, səkkizinci bölməsi qanundan əmələ gələn öhdəliklər, doqquzuncu bölmə mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər və onuncu bölməsi vərəsəlik hüququndan irəli gələn normalardan ibarətdir.

Ümumi hissədə Mülki Məcəllənin məqsədi kimi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığının, onun iştirakçılarının bərabərliyi əsasında təmin edilməsi kimi göstərilib. Azərbaycan SSR-in mülki məcəllələrindən fərqli olaraq, yeni Məcəllədə müqavilənin bağlanmasında iradə azadlığı və bütün mülkiyyət növlərinin bərabərhüquqluluğu elan edilir.

Xüsusi hissədə isə əsasən öhdəlik hüququ və vərəsəlik hüququndan irəli gələn münasibətlər tənzimlənir. Qanundan və mülki hüquq pozuntularından (deliktlər) irəli gələn öhdəliklər fərqlənir. Məcəllədə qanun və vəsiyyətnamə üzrə mirasın bölüşdürülməsi tənzimlənir.

Azərbaycan Respublikasının mülki hüquq sistemi kontinental (roman-german) xüsusi hüquq sisteminin pandekt alt sisteminə aiddir.[6] Pandekt sistemində mülki hüquq normalarının sistemləşdirməsinin mahiyyəti, mülki məcəllə normalarının ümumi və xüsusi hissələrə bölünməsindən ibarətdir. Azərbaycanın mülki qanunvericiliyi Mülki Məcəllənin ümumi və xüsusi hissələrə ayrılması, maddi və prosessual normaların açıq şəkildə bölünməsi kimi xüsusiyyətlərə malikdir. Azərbaycanda mülki hüququn məcəlləşdirilməsində xüsusi hüququn dualizm yox, monizm nəzəriyyəsi əsas götürülüb, belə ki, mülki və ticarət münasibətlərini yalnız bir məcəllə tənzimləyir. 1999-cu il AR-nın MM-i özündə fiziki və hüquqi şəxslərinin təsərüffat münasibətlərini, o cümlədən, kommersiya təşkilatlarının statusunu və hüquq münasibətlərini tənzimləyir.

Azərbaycanın mülki qanunvericiliyi müqavilə azadlığı, mülkiyyət toxunulmazlığı, şəxsi işlərə qarışmama, iqtisadi planlaşdırmanın inzibati-əmr sisteminə xas olan əvvəlki normalardan imtina prinsiplərinə əsaslanır.

1999-cu il AR-nın post-sosialist MM-nin layihəsi əsasən Niderland Mülki Məcəlləsinin ən yeni xüsusiyyətlərinin də nəzərə alınmaqla, 1896-cı il Almaniya Mülki Qanunnaməsinin pandekt sisteminə əsaslanır. Bu xüsusən Mülki Məcəllənin strukturuna, stilistikasına və terminologiyasına aiddir. Digər əksər MDB ölkələrinin mülki məcəllələri ilə müqayisədə, 1999-cu il AR-nın MM-ə alman mülki hüququnun təsiri daha çoxdur, buna misal kimi müstəqil əşya hüquq növləri qismində sahiblik, girov, ipoteka, servitut və uzufruktun fərqləndirilməsini göstərmək olar. Hətta 1999-cu il AR-nın MM-nin bəzi maddələri belə birbaşa 1896-ci il Almaniyanın Mülki Qanunnaməsindən götürülüb. Məsələn, günümüzdə aktual olan pul öhdəliklərinin icrası ilə bağlı 1999-cu il AR-nın MM-nin 439.2-ci maddəsi 1896-cı il Almaniyanın Mülki Qanunnaməsinin 244.2-ci paraqrafı əsasında tərtib olunub.

Bununla yanaşı, 1999-cu il AR-nın MM-nin bəzi hissələri və maddələri 1994-cü ildə Müstəqil Dövlətlər Birliyinin (MDB) Parlamentlərarası Assambleyasının tərəfindən təsdiq edilmiş Model

---

[6]Pandekt sisteminin əsas prinsiplərindən biri normativ hüquqi aktların (məcəllələr, qanunlar) ümumi və xüsusi hissələrə bölünməsidir. Napoleon şəxsi iştirakı ilə hazırlanan Fransanın Mülki Məcəlləsində təcəssüm etdirilən institusional sistem pandekt sistemin əksi hesab edilir. Pandekt sistemi XVIII—XIX əsrlərdə görkəmli Alman hüquqşünasları Georq Fridrix Puxta, Karl Adolf Vangerov, Georq Arnold Hayze, Bernhard Vinşeyd, Henrix Dernburq tərəfindən hazırlanmışdır. Bu hüquqşünaslar (pandektistlər) Roma xüsusi hüququnun mənbələrini, ilk növbədə, Yustinianın Qanunlar toplusunu hərtərəfli sistemləşdirmişdilər. Pandektistlərin fəaliyyəti nəticəsində müqavilə, əqd, öhdəlik, əşya hüququ, mülkiyyət hüququ, delikt kimi Roma hüququnda olmayan ümumi hüquq anlayışları ortaya çıxdı. Pandektistlərin əsas nailiyyəti mülki hüquq müddəalarının ümumi və xüsusi hissələrə ayrılması, əşya və öhdəlik hüquqlarının fərqləndirilməsi, maddi və prosessual normaların açıq şəkildə bölünməsi olmuşdur.

Mülki Məcəllə[7] və Rusiya Federasiyasının Mülki Məcəlləsinin təsirinə məruz qalıb. MDB ölkələri üçün Model Mülki Məcəllə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan və Ermənistan kimi ölkələrin milli mülki məcəllələri üçün əsas kimi qəbul edilsə də, Azərbaycan, Gürcüstan, Moldova və Türkmənistan qanunvericiləri milli mülki məcəllələrinin işlənib hazırlanmasında öz yolunu seçərək MDB ölkələri üçün Model Mülki Məcəllə ilə yalnız qismən əlaqələndirmə həyata keçirmişdir [6, c. 21-24]. 1999-cu il AR-nın MM-nin ümumi hissəsindəki bəzi fəsillər və maddələrin məzmunu birbaşa MDB ölkələri üçün Model Mülki Məcəllə və Rusiya Federasiyasının Mülki Məcəlləsinin təsirinə məruz qalıb. Buna misal kimi işgüzar adətlər haqqında 10-cu maddəni göstərmək olar. Rusiya mülki hüququ nəzəriyyəsindəki mülki hüquq mənbələri siyahısına işgüzar adətlər də aid edilir. Rusiya Federasiyasının qüvvədə olan Mülki Məcəlləsinin "adətlər" adlandırılan 5-ci maddəsində qeyd olunur ki, sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən, qanunvericilikdə nəzərdə tutulmayan davranış qaydası, hansısa aktda qeyd edilib-edilmədiyindən asılı olmayaraq, işgüzar adət sayılır. Qanunvericiliyə və ya müqaviləyə zidd olan işgüzar adətlər tətbiq edilmir. Bu məqalənin məzmunu MDB ölkələri üçün Model Mülki Məcəllənin "işgüzar dövriyyə adətləri" adlandırılan 5-ci maddəsi ilə tamamilə eynidir. Müqayisəli təhlil yolu ilə məlum olur ki, Azərbaycan Respublikasının qüvvədə olan Mülki Məcəlləsinin "işgüzar adətlər" adlanıdırılan 10-cu maddəsinin məzmunu tamamilə bu iki məcəllədən götürülüb. 1999-cu il AR-nın MM-nin xüsusi hissəsində "Müqavilələrdən əmələ gələn öhdəliklər" adlı 7-ci bölmədə əksər müddəalar, o cümlədən müqavilə növləri də Rusiya Federasiyasının MM-nin ikinci hissəsinin "Öhdəliklərin müəyyən növləri" adlı 6-cı bölməsindən götürülüb. Azərbaycanda mülki hüququn məcəlləşdirilməsinin bir digər xüsusiyyəti, ailə hüququ normalarının mülki hüquq tənzimlənməsi hüdudlarından kənara çıxarılmaqla, Rusiya modelinə uyğun olaraq ayrıca bir Ailə Məcəlləsini formalaşdırmasıdır.

Bununla yanaşı, 1999-cu il AR-nın MM-i və Rusiya Federasiyasının MM-i arasında bir çox fərqliliklər var, o cümlədən, struktur baxımından. Məsələn, Rusiya Federasiyasının MM-dən fərqli olaraq, 1999-cu il AR-nın MM-də əqli mülkiyyət və beynəlxalq xüsusi hüquqa aid ayrıca bölmələr mövcud deyil. Azərbaycanda əqli mülkiyyət hüquqlarından irəli gələn münasibətlər, Mülki Məcəllə ilə yanaşı əsasən ayrı-ayrı hüquqi aktlar ilə tənzimlənir.

Mülki məcəllənin hazırlanması kifayət qədər uzun bir prosesdir. Məsələn, 2020-ci ildə qəbul edilmiş və "XXI əsrin Mülki Məcəlləsi" hesab edilən Çin Xalq Respublikasının Mülki Məcəlləsinin hazırlanması üçün tam 66 il sərf edilmişdir, belə ki, ÇXR-də Mülki Məcəllənin ilk layihəsi hələ uzaq 1954-ci ildə hazırlanmışdır. Uzun illər ərzində Çində Mülki Məcəllənin çoxsaylı layihələri hazırlanmış və layihələr ətrafında hüquq mütəxəssisləri arasında geniş və detallı müzakirələr aparılmışdı. Bəzən müzakirələr nəinki hər bölmə, hər fəsil, hər maddə, hətta hər cümlə və hər söz ətrafında olmuşdur.

Azərbaycanda müstəqilliyin ilk illərində yeni mülki qanunvericiliyin hazırlanması və mülki hüququn məcəlləşdirilməsi ilə bağlı bir o qədər də böyük həcmli iş görülməmişdir. Bunun əsas

[7] 15 aprel 1994-cü ildə MDB-yə üzv olan səkkiz dövlətin: Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan və Ukraynanın Hökumət Başçıları Şurasının qərarı ilə MDB Xüsusi Hüquq Elmi-Məsləhət Mərkəzi yaradıldı. Bu Mərkəzin əsas vəzifəsi MDB dövlətlərinin xüsusi hüququnun yaxınlaşdırılmasına və uyğunlaşdırılmasına yönəlmiş hüquqi aktların və elmi tövsiyələrin modellərini hazırlamaq idi. Mərkəzin gördüyü işlərin əsas nəticəsi MDB ölkələri üçün Mülki Məcəllə Modelinin hazırlanmasını göstərmək olar. MDB Xüsusi Hüquq Elmi-Məsləhət Mərkəzinin MDB-nin Parlamentlərarası Assambleya və Hüquq Məsləhət Şurası ilə sıx əməkdaşlıq şəraitində hazırladığı Model Mülki Məcəllənin yaradılmasında Niderlandın Leyden Universiteti və Beynəlxalq Hüquqi Əməkdaşlıq Mərkəzinin (CILC) mütəxəssislərinin də köməyi olmuşdur, belə ki Niderland hökuməti keçmiş Sovet İttifaqı ölkələrinə mülki və ticarət qanunvericiliyi yaratmağa kömək etmək üçün vəsait ayırmışdı.

səbəbələrindən biri, ölkədə mülki qanunvericilik sahəsində kifayət qədər mütəxəssisin olmaması idi. İlk baxışdan Azərbaycan Respublikasının Mülki Məcəlləsinin qəbul edilməsi üçün 8 il sərf edildiyi görsənsə də, bu sənəd əslində çox qısa zaman ərzində hazırlanmış və onun layihəsi ictimai müzakirələrin həyata keçirilməsi üçün əvvəlcədən dərc edilməmişdir.

Mülki Məcəllənin 21 ilə yaxındır tətbiqi praktikası açıq şəkildə göstərir ki, onun ciddi şəkildə təkmilləşdirilməsinə ehtiyac var. 1999-2020-ci illər ərzində Məcəlləyə edilmiş çoxsaylı, daha dəqiq olsaq, 107 (!) dəyişiklik, Məcəllədən ümumiyyətcə çıxarılmış 40 (!)[8] maddə deyilən fikri açıq şəkildə təsdiqləyir. Mülki Məcəllənin müxtəlif maddələrinin yenidən yazılması, hüquqi şəxslərə həsr olunmuş 4-cü fəslin, habelə məhdud məsuliyyətli cəmiyyətlər və kooperativlərlə bağlı hazırlanmış maddələrinin yeni layihələrinin müzakirəyə çıxarılması, sığorta müqaviləsi haqqında 50-ci fəslin başlığının dəyişdirilməsi, qiymətli kağızlara həsr olunmuş 54-cü fəslə bir çox əlavə və dəyişikliklərin tətbiq edilməsi bir tək mülki qanunvericiliyin təkmilləşdirilməsi anlamına gəlmir, eyni zamanda, bu dolayı yol ilə Məcəllənin müddəalarının keyfiyyətsiz şəkildə yazılmasını etiraf edir.

Qeyd edildiyi kimi, ötən 21 il ərzində Mülki Məcəlləyə saysız-hesabsız düzəlişlər və əlavələr edilsə də, bu hüquqi akt hələ də optimaldan çox uzaqdır. Fransa Mülki Məcəlləsindən fərqli olaraq, Azərbaycan Mülki Məcəlləsinin dili kifayət qədər mürəkkəbdir, burada bir çox mücərrəd cümlələr və ifadələr işlənib, buna görə sadə vətəndaşlar onu başa düşməkdə çətinlik çəkir. Mülki Məcəllənin qəbul edilməsinin əsas məqsədi sadə vətəndaşların hüquqlarının qorunması, onların cari maraqlarına və tələbatına cavab verməsi məqsədi daşımalıdır. Mülki Məcəllədə millətin ənənələri, inkişaf yolu ilə yanaşı, cari reallıq və cəmiyyətin gələcək inkişaf istiqamətləri təsvir edilməlidir.

Qısa müddət ərzində hazırlanan və geniş ictimai müzakirələrə çıxarılmadan qəbul edilən Mülki Məcəlləmizin sistemsizlik, qarışıq müddəalar, zəif hüquqi texnika, çoxlu sayda imperativ normalar kimi çatışmazlıqları mövcuddur. Bəzi hallarda Mülki Məcəllənin normalarının anlaşıqlı dildə yazılmaması ayrı-ayrı maddələrin izah olunmasında çətinliklər yaradır və bu birbaşa qanunların düzgün şəkildə təfsir və tətbiq olunmasına mənfi cəhətdən təsir edir. Rusiya Mülki Məcəlləsi və Almaniya Mülki Qanunnaməsinin bir sıra müddəalar dərin şəkildə təhlil edilmədən sistemsiz və mexaniki olaraq Mülki Məcəlləmizə daxil edilib. Ümumiləşdirərək demək olar ki, mülki hüquq sahəsində Azərbaycan cəmiyyəti 1999-cü ildə qəbul edilmiş Mülki Məcəllənin timsalında hal-hazırda nisbətən daha perspektivli bir tənzimləyiciyə sahib olsa da, bu məcəllədə bir çox çatışmazlıqlar və boşluqlar mövcuddur.

## Nəticə

Azərbaycanda mülki qanunvericiliyin məcəlləşdirilməsi tarixi XX əsr ərzində qəbul edilmiş hər üç mülki məcəllələnin mülki hüquq ənənələrinə əsaslandığını və əksər hallarda digər Avropa ölkələrinin mülki məcəllələrindən müddəalar götürdüyünü göstərir. Bununla yanaşı, qeyd olunmalıdır ki, Azərbaycanda mülki hüququn formalaşmasında əsas rolu klassik pandekt və ya institusional məcəllələr (müvafiq olaraq Alman Mülki Qanunnaməsi və Fransa Mülki Məcəlləsi) deyil, ilk növbədə Sovet tipli 1923-cü ilin Mülki Məcəlləsi oynamışdır. Eyni zamanda, sözsüz ki, iqtisadiyyat, siyasət və həyat tərzindəki fərqliliklər nəticəsində Azərbaycan mülki qanunvericiliyinin hər zaman özünəməxsus xüsusiyyətləri olmuşdur. Azərbaycan mülki hüququnun özünə-

[8] 1999-cu il Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 20, 22, 137, 142, 143, 145, 167, 168, 200, 201, 275, 330, 332, 333, 335, 338, 348, 401, 412, 413, 444, 455, 457, 490, 603, 626, 628, 644, 761, 1071, 1072, 1073, 1074, 1075, 1102, 1109, 1116, 1310, 1311,1316 nömrəli maddələri.

məxsus xüsusiyyətlərinin olması heç də mülki ənənələrdən kənarlaşma anlamına gəlmir və bir çox hallarda roman-german hüquq ənənəsinə aid ölkələrdəki mülki hüquq müddəaları ilə müqayisə edilə bilər. Bu mənada 1999-cu ildə qəbul edilmiş Mülki Məcəllə, Azərbaycan mülki hüququnun Avropa ölkələrinin mülki hüququ ilə uyğunlaşdırılması baxımından xüsusi və əhəmiyyətli anlam daşıyır.

Ümumilikdə, Azərbaycanın qüvvədə olan mülki hüquq sistemini sosialist sistemindən roman-german hüquq sisteminə transofrmasiya olunmuş və bazar iqtisadiyyatı yönümlü kimi xarakterizə etmək olar. Eyni zamanda, Azərbaycanın mülki qanunvericiliyi milli və ortaq İslam ənənələrini əks etdirən müəyyən xüsusiyyətlər də nümayiş etdirir. Millətin həyat tərzi, düşüncəsi və adət-ənənələri milli hüquq sisteminin təkamülü və inkişafı proseslərinə xeyli təsir göstərib.

Azərbaycanın müstəqillik əldə etməsindən artıq otuz il keçir və ölkə 90-cı illərin əvvəllərindəki ağır böhrandan çıxaraq, müstəqil iqtisadiyyat qurmaqla, Cənubi Qafqaz və MDB ölkələri arasında liderlərdən birinə çevrilib. Bu illər ərzində Respublikada mərkəzləşdirilmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına və qanunun aliliyi quruculuğu yolu ilə inkişaf edən bir cəmiyyətə keçidi təmin edən əsaslı iqtisadi islahatlar həyata keçirilib. İqtisadi islahatlar isə dövlətin və cəmiyyətin inkişafının əsaslarını təşkil edən hüquqi islahatlar olmadan mümkün deyil. Mülki hüquq iqtisadiyyatın bazar təməllərinin qurulmasında əsas rol oynayır. Mülki Məcəllənin keyfiyyətinin yuxarı olmaması birbaşa ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun və sahibkarlığın inkişafına təsir edir.

Azərbaycan yeni iqtisadi inkişaf səviyyəsinə yüksəldiyinə görə, artıq ölkədə hüququn da yeni inkişaf mərhələsinə qədəm qoyması üçün ehtiyac və zəmin yaranıb. Ölkəmiz 30 ildir ki, milli hüquq sistemi qursa da, əsasən yalnız publik hüquq sahəsində ciddi irəliləyiş əldə olunub. Hüquqi dil və hüquqi texnika baxımından daha uğurlu hüquqi aktlar konstitusiya hüququ, inzibati hüquq, cinayət hüququ və digər publik hüquq sahələrində qəbul edilmişdir. Xüsusi hüququn əsasını təşkil edən və mülki hüquq müddəalarından ibarət olan Mülki Məcəlləmiz isə hələ də mükəmməldən çox uzaqdır. Belə ki, mülki qanunvericilikdə həyata keçirilən islahatlardan sonra, 1999-cu ilin Mülki Məcəlləsində öz əksini tapmış normaların tətbiqində bir çox çatışmazlıqlar aşkar edilib və bu çatışmazlıqların aradan qaldırılması yalnız mülki qanunvericiliyin daha da inkişaf etdirilməsi yolu ilə mümkündür.

Publik hüquq normaları deduktiv metod əsasında inkişaf etdirilə bilər, hətta bəzən xarici qanunun əksər hissəsini tamamilə kopyalayıb ölkədə tətbiq etmək olur. Xüsusi hüquqda isə bu mümkün deyil, belə ki, xüsusi hüquq normalarının işlənilməsi üçün induktiv metodun tətbiq edilməsi lazımdır, o cümlədən cəmiyyətin təcrübəsi və ehtiyaclarının dərindən araşdırılması, təhlili və müzakirələri. İnkişaf etmiş ölkələrin təcrübəsi bir daha onu göstərir ki, milli hüquq sistemi əsasən xüsusi hüquq sahəsindəki elmi müzakirələr əsasında inkişaf edir. Qanunvericiliyimizin inkişafı və düzgün tətbiqi üçün simulyasiya deyil, həqiqi və effektiv elmi müzakirələrə ehtiyac var. Mövcud qanunlar daima təhlil və tənqid edilməli və onların təkmilləşdirilməsi ilə bağlı mütəmadi olaraq təkliflər verilməlidir.

Azərbaycanda qanunvericilik fəaliyyəti ilə, demək olar ki, yalnız ölkənin qanunverici orqanı olan Milli Məclisin deputatları məşğul olur. Hakimlərin, vəkillərin, hüquq ekspertlərinin, elm adamlarının və vətəndaş dərnəklərinin qanun yaradıcılığı sahəsində fikirləri nəzərə alınmadan isə düzgün qanunvericilik fəaliyyəti həyata keçirmək mümkün deyil. Azərbaycanda qanun yaradıcılığının şəffaflığı artırılmalıdır. Bunu etmək üçün isə mütəmadi olaraq hüquq ekspertləri və ictimai fəalları da cəlb etməklə ölkədə mülki qanunvericiliyin elmi və praktik konfransları keçirilməlidir. Hüquq normalarının düzgün anlaşılmasına və qanunauyğun tətbiq edilməsində isə

onların elmi anlayışını və praktiki tətbiqi qaydalarını dəqiq şəkildə şərh etmək olduqca önəmlidir. Bu cür konfranslarda aparılan müzakirələr qanunvericilik işinin keyfiyyətinin yüksəlməsinə, əhalinin hüquqi mədəniyyətinin artmasına, hüquq və dövlətin nüfuzunun artmasına töhvə verə bilər.

Müstəqillikdən bəri qəbul edilmiş mülki qanunvericiliyin nəticələrini qiymətləndirərək demək olar ki, mülki hüquq sisteminin qurulması və inkişafı ilə bağlı əksər məsələlər öz həllini tapsa da, mülki qanunvericiliyimizin islahatlara və yenidən tənzimlənməsinə böyük ehtiyac var. Belə ki, yeni ictimai münasibətlərin meydana çıxması qaçılmazdır və bu baxımdan qanunvericiliyin yeni tələblərə cavab verməsi və zamanla ayaqlaşması üçün dinamik inkişafda olan bir ölkə kimi, Azərbaycan mülki qanunvericiliyin təkmilləşdirilməsinə doğru getməlidir. Digər sözlə, Azərbaycanda mövcud olan mülki qanunvericilik bazasının ictimai münasibətlərin inkişaf sürətinə adekvat olaraq təkmilləşdirilməsi olduqca vacibdir. Bu xüsusda ölkədə sürətlə inkişaf edən və dəyişən ictimai münasibətlər qanunların praktiki tətbiqinin optimallaşdırma yollarının axtarılmasına xüsusi aktuallıq verir.

Mülki Məcəllə ölkədə bazar münasibətlərinin formalaşması və inkişafı üçün əsas qanunverici akt hesab olsa da, onun cəmiyyətin gündəlik həyatında effektiv tətbiqi hələ də həll edilməmiş problem olaraq qalır. Bunun üçün qanunverici hakimiyyət, məhkəmələr və vəkillər birlikdə Mülki Məcəllənin təkmilləşdirilməsində davamlı olaraq birgə səylər göstərməlidir. Mülki qanunvericilik sahəsində beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə mütəmadi olaraq fikir mübadiləsinin aparılması və ölkədə mövcud ictimai münasibətlər kontekstində uğurlu hesab olunan təcrübələrin tətbiqi labüddür.

Qanunvericilik fəaliyyətinin əsas məqsədlərindən biri ictimai münasibətlərdə hüquqi müəyyənlik prinsipini təmin etməkdir. Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi həm vətəndaşlar arasında, həm də vətəndaşlarla dövlət arasında qanunla tənzimlənməyən "boz zona"ların olmamasını tələb edir.

Mülki Məcəllənin dili dəqiq, səlist və sadə vətəndaşlar üçün anlaşılan, məcəllənin müddəalarında mülki hüquq münasibətlərinin obyekt və subyektlərinin anlayışı isə konkret məsələlər nəzərə alınmaqla dəqiq və detallı olmalıdır. Digər sözlə, tərəflərin bu müddəaları özlərinə uyğun şəkildə implementasiya etməməsi üçün, Mülki Məcəllədə qeyri-müəyyənliklərə yol verilməməlidir.

Hal-hazırda hüquq sisteminin tamamlanması, strukturlaşdırılmasının təmin edilməsi, əvvəlki illərdə qəbul edilmiş ziddiyyətlərin və boşluqların aradan qaldırılması məsələsi aktualdır. Bununla əlaqədar olaraq müəllif mülki qanunvericiliyin optimallaşdırılması ilə bağlı aşağıdakı təklifləri irəli sürür:

1. Bütün mülki qanunvericiliyə yenidən baxılması, ziddiyyətlərin aradan qaldırılması və qanunların yenidən məcəlləşdirilməsi;

2. Yeni ictimai münasibətləri tənzimləyən və vətəndaşların hüquqlarını etibarlı şəkildə qoruyan normaların Mülki Məcəlləyə daxil edilməsi;

3. Bazar münasibətlərinin yeni inkişaf səviyyəsinə uyğun olaraq Azərbaycan mülki qanunvericiliyinin əsas prinsiplərinin daha da təkmilləşdirilməsi;

4. Qanunların məhkəmə tərəfindən tətbiq edilməsi və şərh edilməsi təcrübəsinin Mülki Məcəllədə əks olunması;

5. Mülkiyyət hüququnun qorunması, sağlam rəqabət, sazişlərin icra olunması və antiinhisar fəaliyyəti haqqında normaların təkmilləşdirilməsi;

6. Azərbaycanın mülki qanunvericiliyinin modernləşdirilməsində bir sıra Avropa (İsveçrə, Niderland, Belçika) və Asiya (Çin, Yaponiya, Cənubi Koreya, Sinqapur) ölkələrinin mülki məcəllələrinin ən yeni uğurlu təcrübəsindən istifadə olunması;

7. Mülki Məcəlləyə dəyişikliklərin və əlavələrin edilməsi barədə təkliflər layihəsinin hazırlanmasına xarici alim və ekspertlərin daha aktiv şəkildə cəlb edilməsi;

8. Mülki Məcəllənin qüsurlu dil üslubu və zəif qanunvericilik texnikasının aradan qaldırılması, Məcəllənin dilinin daha sadə və vətəndaşlar üçün başa düşülən hala gətirilməsi;

9. Qanun tətbiqetmə təcrübəsinin səmərəliliyinin artırılması;

10. Treninqlər vasitəsi lə hakimlərin və vəkillərin maarifləndirilməsi;

11. KİV vasitəsi ilə vətəndaşların hüquqi şüurunun formalaşdırılması;

12. Xüsusi hüquq sahəsindəki alim və mütəxəssislərin iştirakı ilə müasir çağırışlara cavab verən yeni qanunların qəbul edilməsinin və ziddiyyətli qanunların dəyişdirilməsinin ictimai müzakirələrə çıxarılması;

Dünyanın heç bir ölkəsində mükəmməl, nöqsanzıs qanunvericilik və hüquq sistemi yoxdur. Qanunvericilik davamlı islahatlar prosesindədir və bu islahatların ictimai inkişaf dinamikasına uyğun olması olduqca vacibdir.

XX əsrin 90-cı illərində Azərbaycanın mülki qanunvericiliyində islahatların aparılması zərurəti, ilk növbədə mülkiyyət münasibətlərinin inzibati və planlı tənzimlənməsini təcəssüm etdirən bütün normaların aradan qaldırılması istəyindən irəli gəlirdi. Hal-hazırdakı dövrümüzdə isə XX əsrin 90-cı illərinin islahatlardan fərqli olaraq mülki qanunvericilikdə modernləşmə və islahatlar zərurəti ilk növbədə mülki-hüquqi tənzimləmənin və mülki dövriyyənin sabitliyinin təmin edilməsi vacibliyindən yaranıb. Bu da öz növbəsində, şübhəsiz ki, gələcək hüquqi islahatlar üçün əsas kimi mülki qanunvericilik mənbələri haqqında normaların daha dəqiq şəkildə tənzimlənməsini tələb edir.

Yuxarıda irəli sürülən təklifləri ümumiləşdirərək demək olar ki, Azərbaycanın mülki qanunvericiliyinin inkişaf və islahat konsepsiyası, ölkəmizdə durmadan inkişaf edən bazar münasibətlərinin "keçid" mahiyyətini tədricən aradan qaldırmaqla, onların daha effektiv şəkildə tənzimlənməsinə yönəlmiş bir vahid strategiyaya çevirilməlidir.

**Biblioqrafiya**

1. Azərbaycan SSR-in Mülki Məcəlləsi (1923-cü il), Azərbaycan SSR-in Mülki Məcəlləsi (1964-cü il): Bütün əlavə və dəyişikliklər də daxil olmaqla məcəllələrin bərpa edilmiş tam mətnləri/tərtibçi B.C. Kərimli. Bakı: Hüquq Yayın Evi. - 2013.

2. Əkbərov R.F, Səlimov S.M. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Qanun nəşriyyatı, 2003. – 532 s.

3. Həsənov Ə.Ş. İş və xidmət müqavilələri: Mülki Məcəllənin kommentariyası: 2-ci nəşr. Bakı: Adventa MMC, 2013.- 415 s.

4. Normativ hüquqi aktlar haqqında 21.12.2010-cu il tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu. URL: http://www.e-qanun.az/framework/21300 (müraciət tarixi: 11.02.2021)

5. Səlimov S. Azərbaycan SSR mülki qanunveriçiliyi tarixindən. Bakı: Azərnəşr, 1969.

6. Богустов А.А. Проблемы взаимодействия модельного и национального гражданского законодательства стран СНГ. Рос. юстиция. 2012. № 3. С. 21-24.

7. Гойхбарг А.Г. Ленин и советское право // Советское право, 1924, № 2.

8. Иоффе О.С. Избранные труды по гражданскому праву: Из истории цивилистической мысли. Гражданское правоотношение. Критика теории «хозяйственного права». М.: Статут, 2000. - 777 с.

9. Ленин В.И. О задачах Наркомюста в условиях новой экономической политики: Письмо Д. И. Курскому. Полное собрание сочинений, М., 1964.

10. Маковский А.Л. О кодификации гражданского права (1922-2006). М.: Статут, 2010. - 736 с.

11. Павлова Н.Н. Сравнительный анализ источников гражданского законодательства стран бывшего СССР // Вестник Пермского университета. Выпуск 3 (17), 2012. С. 159-166.

12. Салимов С.М. Создание гражданского законодательства Азербайджанской ССР (1920 - 1923 гг.). Баку, 1970.

13. Халафов М.С. История государства и права Азербайджанской ССР: 1920-1934 гг. Баку: Изд-во Академии наук Азербайджанской ССР, 1964.

14. Халафов М.С. Гражданское право Азербайджанской ССР в период строительства социализма, 1920-1935 гг.: дис… докт. юрид. наук. Баку, 1973.

15. Olimpiad S. Ioffe. Development of Civil Law Thinking in the USSR. Milano: Dott. A. Giuffre Editore, 1989.

16. Rémy Cabrillac. Les codifications (Droit éthique société) (French Edition) (French) Paperback – November 19, 2002. 320 p.

17. Rolf Knieper, Mark Boguslavski. Concept for Legal Counseling in Transformation States. Seidman/Wälde, Seidman 1999.

18. Rolf Knieper. Rechtsreformen entlang der Seidenstraße: Aufsätze und Vorträge während der beobachtenden Teilnahme an einem gewaltigen Transformationsprozess. Berliner Wissenschafts-Verlag, 1 Jan 2006.

19. Vladimir Gsovski. Soviet civil law: Private rights and their background under the Soviet regime. University of Michigan Law School, Ann Arbor 1949.

20. Yevgeny Sukhanov. The Concept of Ownership in Current Russian Law, Law Review. University of Tartu, Estonia, No. VI, 2001, pp. 102-107.

**Халилов Н.Ш.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.81-103**
**УДК 347.1**

## Кодификация гражданского законодательства в Азербайджане: история, текущее состояние и перспективы развития

**Аннотация:** Гражданский кодекс является вторым по значимости правовым актом после Конституции страны и первым по объему. Ввиду важной роли, которую он играет в жизни граждан, Гражданский кодекс даже иногда неофициально называют «Экономической конституцией». В то же время Гражданский кодекс является основным документом, устанав-

♦ **Халилов Натиг Шахин оглы –** доктор философии права, старший советник Аппарата торгового представителя Посольства Азербайджанской Республики в Китайской Народной Республике. (Азербайджан) (Университет Сунь-Ятсена, Китайская Народная Республика). E-mail: nkhalilov@hotmail.com

ливающим правила рыночной экономики. Описаны процессы кодификации, осуществленные в сфере гражданского права в Азербайджане за последние 100 лет. В течение XX века, по сравнению со многими другими странами, Азербайджан трижды принимал Гражданский кодекс, точнее, трижды путем кодификации гражданского права. В то же время в статье рассматривается разработка с нуля гражданского законодательства о переходе от плановой экономики к рыночной после обретения независимости в 1990-е годы. В заключении статьи говорится о существующих проблемах гражданского законодательства Азербайджанской Республики, и вносятся предложения по их решению.

**Ключевые слова**: гражданское право; частное право; кодификация; нормативно-правовй акт; Гражданский кодекс; Пандектная система; правовые реформы.

**Библиография**

1. Гражданский Кодекс Азербайджанской ССР (1923 г.), Гражданский Кодекс Азербайджанской ССР (1964 г.) : с дополн. и измен. / сост. Б.С. Керимли. - Баку: Hüquq Yayın Evi, 2013 (на азерб. яз.).

2. Акперов Р.Ф., Салимов С.М. История государства и права Азербайджана. - Баку: Ганун, 2003. – 532 с. (на азерб. яз.).

3. Гасанов А.Ш. Договоры на работу и оказание услуг: Комментарий к Гражданскому кодексу: 2-ое изд. - Баку: Adventa MMC, 2013. – 415 с.

4. Конституционный закон Азербайджанской Республики «О нормативно-правовых актах» от 21.12.2010 г. http://www.e-qanun.az/framework/21300 (дата обращения: 11.02.2021)

5. Салимов С.М. Из истории гражданского законодательства Азербайджанской ССР. - Баку: Азернешр, 1969.

6. Богустов А.А. Проблемы взаимодействия модельного и национального гражданского законодательства стран СНГ. // Рос. юстиция. 2012. -№ 3. -С. 21-24.

7. Гойхбарг А.Г. Ленин и советское право // Советское право. 1924, -№ 2.

8. Иоффе О.С. Избранные труды по гражданскому праву: Из истории цивилистической мысли. Гражданское правоотношение. Критика теории «хозяйственного права». - М.: Статут, 2000. - 777 с.

9. Ленин В.И. О задачах Наркомюста в условиях новой экономической политики: Письмо Д. И. Курскому. Полное собрание сочинений. -М., 1964.

10. Маковский А.Л. О кодификации гражданского права (1922 - 2006). - М.: Статут, 2010. - 736 с.

11. Павлова Н.Н. Сравнительный анализ источников гражданского законодательства стран бывшего СССР // Вестник Пермского университета. Выпуск 3 (17). 2012. - С. 159-166.

12. Салимов С.М. Создание гражданского законодательства Азербайджанской ССР (1920 - 1923 гг.). - Баку, 1970.

13. Халафов М.С. История государства и права Азербайджанской ССР: 1920-1934 гг. - Баку: Изд-во Академии наук Азербайджанской ССР, 1964.

14. Халафов М.С. Гражданское право Азербайджанской ССР в период строительства социализма, 1920-1935 гг.: дис… докт. юрид. наук. Баку, 1973.

15. Olimpiad S. Ioffe. Development of Civil Law Thinking in the USSR. Milano: Dott. A. Giuffre Editore, 1989.

16. Rémy Cabrillac. Les codifications (Droit éthique société) (French Edition) (French) Paperback – November 19, 2002. 320 p.

17. Rolf Knieper, Mark Boguslavski. Concept for Legal Counseling in Transformation States. Seidman/Wälde, Seidman 1999.

18. Rolf Knieper. Rechtsreformen entlang der Seidenstraße: Aufsätze und Vorträge während der beobachtenden Teilnahme an einem gewaltigen Transformationsprozess. Berliner Wissenschafts-Verlag, 1 Jan 2006.

19. Vladimir Gsovski. Soviet civil law: Private rights and their background under the Soviet regime. University of Michigan Law School, Ann Arbor 1949.

20. Yevgeny Sukhanov. The Concept of Ownership in Current Russian Law, Law Review. University of Tartu, Estonia, No. VI, 2001, pp. 102-107.